www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 noyabr 2016-cı il Çərşənbə axşamı № 242 (6563) Qiymәti 60 qəpik

**Xəbər**

## Bakıda kişi arvadını və qızını bıçaqladı

yazısı səh.14-də

**Gündəm**

### Cəbhə xəttində düşmən təxribatları artır



Müdafiə Nazirliyindən açıqlama gəldi; ekspertlər son durumu şərh edirlər

yazısı səh.8-də

### Vitse-prezidentlər nə zaman təyin olunacaq?

yazısı səh.7-də

### 19 il əvvəlin tarixi- Elçibəyin Kələkidən dönüşü...

yazısı səh.3-də

### Müxalifət Trampı şizofrenik hesab etmir, amma...

yazısı səh.4-də

### Milli valyutanın perspektivi - manatı nələr gözləyir...

yazısı səh.7-də

### Amerikanın demokratik və qəliz seçki sistemi

yazısı səh.9-da

### NATO Rusiya ilə olası savaşa hazırlaşır - "Stoltenberq xətti" qurulur

yazısı səh.10-da

### Qarabağ münaqişəsinin "donu" qışda da açıla bilər

yazısı səh.13-də

### Azərbaycanda yeni doğulan uşağa 90, buzova isə 100 manat verilir...

yazısı səh.15-də

### 20 yaşlı qız dəm qazından zəhərləndi

yazısı səh.2-də

*Qurban Yetirmişli:*

### "Zəlzələ silahı Amerikanın əlindədir"

yazısı səh.15-də

### Erməni politoloqdan Sərkisyana soyqırım ittihamı

yazısı səh.13-də

## "Yaxın xaric" ölkələri növbəti sınaqla üz-üzə

# PUTİNİN "B PLANI" - KREML BİR NEÇƏ ÖLKƏDƏ İNQİLAB HAZIRLAYIR

Təhdidlərdən Bakıya da mesaj payı düşür; ipə-sapa yatmayan həmsərhəd dövlətlərə yeni təhlükə; Rusiya hakimiyyətinin yuxarı eşelonundakı son kadr dəyişikliyinin daha bir pərdəarxası...




yazısı səh.9-da

## Tektonik silahın azərbaycanlı müəllifi barədə şok məlumatlar - İkram Kərimov kimdir?

"Elmi tədqiqatların nəticələrini Moskva alimləri oğurlayıb yapon mütəxəssisə verdi, sonra bu, amerikalıların əlinə keçdi"

yazısı səh.11-də



*Rəis Rəsulzadə:*

**"Soruşurdum ki, anam hanı, məni aldadıb deyirdilər "xəstəxanadadır, bir azdan gələcək""**

yazısı səh.6-da



*Elxan Şahinoğlu:*

**"Rusiya vətəndaşları vizasız ölkəmizə gələ bilirsə, eyni hüquq Türkiyə və İran vətəndaşlarına da verilməlidir"**

yazısı səh.12-də



*Novella Cəfəroğlu:*

**"Hazırladıqları siyasi məhbus siyahılarında adları olanların yarısı əldəqayırmadır"**

yazısı səh.3-də



## Prezident Siyəzəndə yol tikintisinə 7,1 milyon manat ayırdı

**Prezident İlham Əliyev Siyəzən rayonunun Siyəzən-Böyük Həmyə-Balaca Həmyə-Cəndəhar avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

"Report"un məlumatına görə, sənədə əsasən, iyirmi səkkiz min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Siyəzən-Böyük Həmyə-Balaca Həmyə-Cəndəhar avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən 7,1 milyon manat ayrılıb.

Maliyyə Nazirliyi və "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə müvafiq məbləğdə maliyyələşməni və tikinti işlərini müəyyən olunmuş qaydada təmin etmək tapşırılıb.

## Akif Çovdarovun "səhhəti düzəlmir"

### Odioz generalın məhkəməsi yenə təxirə salındı

**Oktyabrın 31-də ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarovun və onunla birgə tutulan digər 4 sabiq MTN-çinin işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.**

Musavat.com xəbər verir ki, cinayət işinə Sabunçu Rayon Məhkəməsinin inzibati binasında Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənovun sədrliyi, hakimlər Elbəy Allahverdiyev və Müslüm Əliyevin iştirakı ilə baxılır.

Məhkəmə prosesi 11.00-da başlasa da, jurnalistlərin iştirakına icazə verilməyib. Səbəb olaraq isə "yuxarıdan tapşırıq var" deyə bildirilib. Qeyd edək ki, prosesin qapalı keçiriləcəyi əvvəlcədən elan olunmayıb.

Presesdən sonra Çovdarovun vəkili Kamandar Nəsibov musavat.com-a bildirib ki, o yenə də məhkəmədən vaxt istəyib.

Vəkil cinayət işi materialları ilə tanış ola bilmədikləri üçün məhkəmədən vaxt istədiklərini söyləyib: "56 cilddən hələ ki 41-i ilə tanış olduq. Ancaq sonradan məlum olu ki, daha 4 cild də işə əlavə olunub. Məhkəmə fasilədən sonra vəsatətimizə münasibət bildirəcək".

Vəkil əlavə edib ki, Akif Çovdarov da vəsatətə münasibət bildirib. O, səhhətinə görə cinayət işi materialları ilə gün ərzində 2 saatdan artıq tanış ola bilmədiyini deyib və vəsatətin təmin olunmasını istəyib.

Akif Çovdarovun vəkilinin vəsatəti təmin edilib və məhkəmə prosesi noyabrın 10-na təxirə salınıb.

Xatırladaq ki, Akif Çovdarov oktyabrın 25-dən aclıq aksiyası keçirir. Səbəb kimi isə səhhətində yaranan problemlərin həlli üçün ona şərait yaradılmadığını göstərir.

Xatırladaq ki, A.Çovdarovun məhkəməsi bu günə qədər 2 dəfə təxirə salınıb. Buna səbəb də Akif Çovdarovun vəkili Kamandar Nəsibovun vəsatət qaldıraraq nə özünün, nə də müvəkkilinin cinayət işi materialları ilə tanış olmadığını bildirməsi idi.

A.Çovdarov ötən ilin noyabr ayında həbs edilib. O, Cinayət Məcəlləsinin 145.3 (Qanunsuz azadlıqdan məhrum etmə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda), 179.3.1, 179.3.2 (Mənimsəmə və ya israf etmə mütəşəkkil dəstə tərəfindən külli miqdarda törədildikdə), 181.3.1, 181.3.2 (Quldurluq mütəşəkkil dəstə tərəfindən külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə), 182.3.1, 182.3.2 (Hədə-qorxu ilə tələb etmə külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə ), 228.4 (Qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə), 302.1, 302.2 (Gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma), 311.3.1, 311.3.2, 311.3.3, 311.3.4 (Rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən hədə-qorxu tətbiq olunmaqla külli miqdarda və təkrar törədildikdə), 313 (Vəzifə saxtakarlığı), 341.2.1, 341.2.2 və 341.2.3-cü (Bir qrup şəxs tərəfindən silah tətbiq olunmaqla hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham olunur.

Əlavə edək ki, A.Çovdarovla birlikdə müttəhimlər kürsüsünə ləğv edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanov da çıxarılıb.

❑ **İlkin MURADOV**

# Nardaranlılardan silinən işıq pulu borclarını tələb edən kimlərdir?

**Bu ilin iyun ayında prezident İlham Əliyev Bakının Nardaran qəsəbəsinə baş çəkib. Qəsəbədəki yenidənqurma işləri ilə tanış olan ölkə başçısı 7-ci imam Museyi Kazımın qızı Rəhimə xanım ziyarətgahında yerli sakinlərlə görüşüb. Dövlət başçısı həmin görüşdə sakinlərə xoş xəbər çatdırıb, Nardaran əhalisinə yazılan 42 milyon 267 min manat elektrik enerjisi borcunun silindiyini açıqlayıb.**



Bu xəbər Azərbaycanda fəaliyyət göstərən əksər KİV-də "Nardaranlıların 42 milyon manatlıq işıq pulu borcu silindi" sərlövhəsi ilə yayılıb. Maraqlıdır ki, həmin görüşdən ötən 4 ay ərzində nardaranlıların işıq pulu borcu müvafiq qurumlar tərəfindən silinməyib. Belə görüntü yaranır ki, kimlərsə bu məsələdə sabotajla məşğuldur.

İşıq idarəsinin əməkdaşları qəsəbə sakinlərindən bu gün də borclarını tələb edirlər. Borcu vermək istəməyənlərin işığını kəsirlər.

Əməkdaşlarımız Nardaran qəsəbəsində sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun bağ evini (http://musavat.com/news/reportaj/emekdashlarimiz-eldar-mahmudovun-bag-evinde-oldular-reportaj_388970.html ttp://musavat.com/news/reportaj/emekdashlarimiz-eldar-mahmudovun-bag-evinde-oldular-reportaj_388970.html ) axtararkən təsadüfən öyrəniblər ki, prezident əhalinin borcunu silsə də, faktiki olaraq borc yerli sakinlərdən alınır. Hətta prezidentin yerli sakinlərlə görüşdüyü müqəddəs "Rəhimə xanım ziyarətgahı"nın da "Azərişıq"a 89 min manatlıq borcu silinməyib. Həmin borcu hissə-hissə, hər ay ziyarətgahdan da alırlar.

Fakt budur ki, kimlərsə gizli şəkildə prezidentin sildiyi işıq pulu borcunu sakinlərdən alırlar. Şikayət edənlərə isə deyilir ki, prezident qeyri-əhalinin (!) elektrik enerjisinə olan borcunu silib, bunun əhaliyə aidiyyəti yoxdur.

Ekspertlər deyirlər ki, prezident 42 milyon manatlıq borcun silindiyinə dair sərəncam veribsə, müvafiq dövlət qurumları həmin borcun silinməsini təmin etmək üçün hərəkətə keçirlər. Uyğun sənədləşmə işləri aparılır. Həmin borc dövlət büdcəsi hesabına silinir. 42 milyon manatı dövlət ödəyibsə, bu pulu Nardaran sakinlərindən alanlar bunu hansı məqsədlə edir və həmin pulu hara yönəldirlər?

Silinmiş işıq pulu borcunun hansı əsasla əhalidən alınması məsələsinə aydınlıq gətirmək üçün "Azərişıq"ın mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayevə sorğu ilə müraciət etmişik. Sorğuya veriləcək cavabı da təqdim edəcəyik.

Daha bir sorğunu ARDNŞ-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinə yolladıq. Xidmətdən bildirdilər ki, ilkin araşdırmalar zamanı Nardarandakı "Rəhimə xanım ziyarətgahı"na qazın verilişinin dayandırılmadığı haqda məlumat alıblar. Qurumdan aydınlaşdırdılar ki, Azərbaycandakı bütün ibadətgahlara fərq qoyulmadan müəyyən limit çərçivəsində qaz verilişi həyata keçirilir. Həmin limitdən artıq qaz sərfiyyatı olduqda isə verilmiş qazın pulu ödənməlidir.

**Mövzuya qayıdacağıq.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# Qaradağda maskalı şəxslər evə basqın etdilər

**Qaradağ rayonunda maskalı şəxslər evə basqın ediblər. "Report"un xəbərinə görə, hadisə Lökbatan qəsəbəsi ev 1 ünvanında baş verib.**




Belə ki, hasardan aşan 3 nəfər maskalı şəxs evə daxil olub. Onlar 1976-cı il təvəllüdlü Bəxtiyar Salmanovun, atası 1947-ci il təvəllüdlü Həsənxan Salmanovun və anası Səməndəri Salmanovanın əl-ayaqlarını və ağızlarını yapışqanlı lentlə bağlayıblar. Naməlum şəxslər daha sonra onlara bıçaqla xəsarət yetirərək yataq otağından 2 min 400 manat pul, 1000 manat dəyərində qızıl-zinət əşyaları və iki ədəd mobil telefonu götürərək hadisə yerindən qaçıblar.

Basqına məruz qalan şəxslər xəstəxanaya yerləşdirilib.

Hüquq-mühafizə orqanları faktla bağlı əməliyyat-axtarış işlərini davam etdirir.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

## Bakıda ingilis neftçinin meyiti tapıldı

**Bakıda xarici ölkə vətəndaşının meyiti tapılıb. Lent.az-ın məlumatına görə, hadisə «Port Baku Residence»dəki otaqlardan birində baş verib. Paytaxtda fəaliyyət göstərən xarici neft şirkətlərindən birində işləyən Böyük Britaniya vətəndaşı, 1960-cı il təvəllüdlü Con Holsted Friman öz otağında hələlik dəqiqləşməmiş səbəbdən vəfat edib.**

Onun üzərində zorakılıq əlaməti aşkarlanmayıb. Faktla bağlı araşdırma aparılır.



## Dolların rəsmi məzənnəsi 1.63, qara bazarda isə 1.75 manatdır

**Azərbaycan Mərkəzi Bankı (AMB) ABŞ dollarının noyabrın 1-nə rəsmi məzənnəsini 1,6381 AZN/USD səviyyəsində müəyyən edib.**

AMB-dən "Report"a verilən məlumata görə, bu, məzənnənin dəyişməməsi deməkdir.

Qeyd edək ki, oktyabrın 28-də və 31-də də rəsmi məzənnə 1,6381 AZN/USD olub.

Amma əməkdaşlarımız ötən gün bir neçə kommersiya bankında və son günlər fəaliyyətini bərpa edən valyutadəyişmə məntəqələrində dolların 1.75 manata satıldığını müşahidə ediblər.

## 20 yaşlı qız dəm qazından zəhərləndi

**Hadisə Şəmkir rayonunun Keçili kəndində baş verib. ARB TV xəbər verir ki, kənd sakini 20 yaşlı Cəvahir Süleymanova yaşadığı evin vanna otağında olarkən dəm qazından zəhərlənib. O, dərhal Şəmkir Mərkəzi Rayon Xəstəxanasının reanimasiya şöbəsinə yerləşdirilib. Həkimlər Cəvahir Süleymanovaya tibbi yardım göstərib və palataya yerləşdirib.**

**Başsağlığı**

**Mehdi Mehdiyev dostu Qələndər Muxtarlıya qardaşı Zabilin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

YENİ MÜSAVAT
N 242 (6563) 1 noyabr 2016

**Bu,** Azərbaycan milli-azadlıq hərəkatının lideri, eks-prezident Əbülfəz Elçibəyin Ordubadın Kələki kəndində çəkilən sonuncu fotosudur. Foto 1997-ci il oktyabr ayının 30-da çəkilib, Elçibəy 4 il 4 ay 12 günlük məcburi hicrətdən sonra paytaxt Bakıya qayıtmaq üçün yola çıxıb. Onun yanındakılar köməkçiləri və mühafizəçiləridir. Onlar da 4 il 4 ay 12 gün Elçibəyi bu dağ kəndində tənha qoymamışdılar, onun həyatına təhlükə yarandığı dövrdə də yanında olmuşdular.

# 19 il əvvəlin tarixi - Elçibəyin Kələkidən dönüşü...

## Keçmiş prezidentin köməkçisi Oqtay Qasımovdan maraqlı açıqlamalar



Həmin şəxslərdən biri Əbülfəz Elçibəyin prezidentliyi və prezidentliyindən sonrakı bütün siyasi fəaliyyəti boyunca köməkçisi, son anına qədər yanında olmuş Oqtay Qasımovdur.

**Oqtay Qasımovla** məhz 19 il öncə Əbülfəz Elçibəyin Kələkidən Bakıya dönüşü haqda xatirələrini bölüşdük. Oqtay Qasımovun sözlərinə görə, 4 il 4 ay 12 gün ərzində Əbülfəz Elçibəyin Bakıya dönüşü üçün bir neçə dəfə cəhdlər edilmişdi. Lakin bu və ya digər səbəblərdən mümkün olmurmuş. Nəhayət, 1997-ci ilin oktyabrında AXCP və Demokratik Konqres Əbülfəz Elçibəyin Bakıya dönüşü ilə bağlı müraciət və imzalar topladı. Oktyabrın sonlarında AXCP-nin Əbülfəz Elçibəyin Bakıya dönüşünün təmin edilməsi məqsədilə qərarı verildi. Bu qərar əsasında AXCP deputatları Mirmahmud Mirəlioğlu, Qulamhüseyn Əlibəyli, Nizami Quliyev 29 oktyabrda Kələkiyə səfər etdilər. 29 oktyabrda gün ərzində Naxçıvan Muxtar Respublikasının hüquq-mühafizə orqanlarının, Ordubad rayon hüquq-mühafizə orqanlarının nümayəndələri dəfələrlə Kələkiyə gəldilər və Əbülfəz bəyin Bakıya dönüşü ilə bağlı müzakirələr apardılar. Aparılan danışıqlar barədə təbii ki, paytaxta da məlumat verilib və danışıqların nəticəsi olaraq Əbülfəz Elçibəyin Bakıya dönüşünə maneçilik yaradılmayacağı niyyəti ortalığa qoyulub: "Oktyabrın 29-dan 30-na keçən gecə Əbülfəz bəyin dönüşü barədə qəti qərar qəbul olundu. Bəlli oldu ki, qayıdışa heç bir maneə olmayacaq. O zamana qədər edilən bütün cəhdlərin qarşısı alınmışdı. Hətta Əbülfəz bəy 1993-cü il iyulun 7-də bəyanat verərək yaxın günlərdə Bakıya qayıdacağını elan etdi. Bəyanatdan bir neçə gün sonra Naxçıvanda hava limanında olan prezident təyyarəsinin qanadını güllə ilə deşdilər. O zaman bu, təsadüfi hadisə kimi qiymətləndirilsə də əslində məqsədin nə olduğu bəlli idi. Bu yolla prezident Əbülfəz Elçibəyin Bakıya dönüşünün qarşısını aldılar. Sonrakı dövrlərdə dönüşlə bağlı cəhdlər, danışıqlar olub. Dönüşlə bağlı Əbülfəz bəy tərəfindən qəbul olunmayan şərtlər qoyulmuşdu. Beləliklə də geri dönüş əngəllənirdi. 1997-ci ilin oktyabrında Əbülfəz bəyin dönüşünə razılıq verilməsində həm Əbülfəz bəyin israrları, həm də prezidentlik müddətinin başa çatması rol oynadı. Geri dönüşə mane olacaq formal, hüquqi hansısa məsələ qalmamışdı.

Deputatlar gələndən sonra hüquq-mühafizə orqanlarının nümayəndələri Əbülfəz bəylə gün ərzində iki dəfə görüşdülər. Bundan öncə-səhər saatlarında mənimlə görüşüb dedilər ki, Əbülfəz Elçibəyin Bakıya gedəcəyi ilə bağlı məlumat var, bu məsələ ilə bağlı özü ilə görüşmək istəyirik. Əbülfəz bəy onları qəbul etdi və dedi ki, Bakıya dönüşü öz istəyidir və AXCP-nin qərarıdır. Həmin gün AXCP-nin deputatları da gəldilər. Hüquq-mühafizə orqanları ilə danışıqları mən apardım və Bakıya gedəcəyimizlə bağlı təkidimizi davam etdirdik.

Şübhəsiz ki, Əbülfəz bəyin Bakıya dönüşü üçün aparılan müzakirələrlə bağlı rəsmi şəxslər tərəfindən Bakıya hakimiyyət dairələrinə məlumat verilirdi. Heydər Əliyevin də məlumatlandırılması şübhəsiz həyata keçirilirdi.

Əbülfəz bəy Bakıya dönməkdə israrlı idi və onun da təkidli mövqeyi məsələnin müsbət həllində həlledici amil oldu. Əbülfəz bəy Bakıya dönən gün Kələkidə böyük bir mitinq keçirdi və kənd əhalisinə minnətdarlığını bildirdi, əhali ilə vidalaşdı. Eyni zamanda Əbülfəz bəy mitinqə gələ bilməyən xəstə, yaşlı adamları ziyarət elədi. Onunla həm alqışlarla, həm də göz yaşları ilə vidalaşırdı insanlar. Əbülfəz bəy Kələkidən sonra qonşuluqdakı Dırnıs kəndindəki Şəhidlər Xiyabanına getdi. Orada da kənd sakinləri ilə görüş keçirildi. Sonra hava limanına doğru hərəkət elədik. Biz hava limanına çatanda təyyarəyə minik başa çatmışdı və təyyarə Əbülfəz bəyi gözləyirdi. Əbülfəz bəy və onu müşayiət edən 11 nəfər dərhal təyyarəyə mindik. Təyyarə adi sərnişin təyyarəsi idi və sərnişinlə dolu idi. 11 nəfərin 3-ü AXCP-dən Kələkiyə gələn millət vəkilləri idi, biri mən idim, digərləri isə Əbülfəz bəyin mühafizəçiləri idi. Bakıya dönüşümüz məsələsi tam həll olunduqdan sonra mən Bakıya gedəcək insanların sayı barədə hüquq-mühafizə orqanları nümayəndələrinə məlumat verdim. 12 nəfərlik yer ayrılıb və biz həmin yerlərin bilet pullarını şəxsən özümüz aeroportda kassada ödəmişik".

**O.Qasımov xatırladtı ki, Əbülfəz bəyin gəlişi ilə bağlı Bakıda da hazırlıqlar var idi:** "Əbülfəz bəyi Bakıda aeroportda qarşılamağa gələn insanlara terminalların yeri yanlış olaraq bildirilmişdi. Bununla belə, hava limanında minlərlə insanın Əbülfəz bəyi qarşılamağa gəldiyinin şahidi olduq. Əbülfəz bəyi böyük coşğu ilə qarşıladılar. Əbülfəz bəy aeroportdan birbaşa AXCP-nin o zaman müvəqqəti yerləşdiyi Xaqani 33 ünvanındakı qərargahına gəldi. Beləliklə, Əbülfəz Elçibəyin dönüşü reallaşdı".

❑ **Etibar SEYİDAĞA**

# Hüquq müdafiəçisi yeni məhbus siyahılarına qarşı

**Novella Cəfəroğlu:** "Hazırladıqları siyahılarda adları olanların yarısı əldəqayırmadır"

**Mehman Əliyev:** "...Nəyə əsaslanıb belə siyahı tərtib ediblər"

**Siyasi məhbuslarla bağlı hazırlanan son siyahılar ətrafında yaranan gərginlik səngimək bilmir. Belə ki, məhbus siyahılarını hazırlayanlar ortaq məxrəcə gələ bilmirlər. Bunu ortaya çıxan məhbus siyahılarının sayı sübut edir.**



Novella Cəfəroğlu



Mehman Əliyev

Təsadüfi deyil ki, hazırda üç məhbus siyahısı var. Oktyabrın 17-də araşdırmaçı jurnalist Xədicə İsmayılın rəhbərliyi ilə 94 nəfərlik siyasi məhbus siyahısı elan olundu. Üstündən bir gün keçməmiş Hollandiyada mühacir həyatı yaşayan hüquq müdafiəçisi Leyla Yunusun 166 nəfərlik siyahısı təqdim olundu. Bu siyahının üzə çıxması ilə sözün həqiqi mənasında aləm bir-birinə dəydi. AXCP sədri Əli Kərimli və Milli Şura sədri Cəmil Həsənlinin 166 nəfərlik siyahıya dəstək vermələri və 94 nəfərlik siyahını natamam adlandırmaları əks tərəfi hərəkətə gətirdi. Xədicə İsmayıl və onun siyahısını müdafiə edənlər Ə.Kərimli və C.Həsənlini sərt şəkildə tənqid etdilər və siyasətçilərin məhbus siyahılarına qarışmalarını qınadılar. Bundan sonra tərəflər arasında başlanan narazılıq hələ də davam edir.

Hər iki siyahı müxalifət düşərgəsini də iki hissəyə ayırıb. Bir qisim 94 nəfərlik siyahının real olduğunu bildirir, digər qisim isə 166 nəfərlik siyahının həqiqət olduğunu düşünür.

Daha bir siyahı da var. Bu İnsan Haqları üzrə Birgə İşçi Qrupunun siyahısıdır. Həmin siyahıdakı məhbusların sayı olduqca azdır. Buna səbəb də İşçi Qrupunun siyahındakı məhbuslardan böyük bir qisminin bu ilin əvvəllərindən başlayaraq azadlığa buraxılmalarıdır. Qrup üzvləri Leyla Yunus və Xədicə İsmayılın siyahılarını birmənalı şəkildə qəbul etmirlər. Onlar hesab edirlər ki, istintaqları gedən, məhkəmə prosesləri davam edən, ümumiyyətlə, barələrində məhkəmə qərarı olmayanları siyasi məhbus siyahısına salmaq doğru deyil.

**İşçi Qrupunun üzvü Novella Cəfəroğlu siyahılarında 10-12 məhbusun adının olduğunu söylədi:** "Bizim siyahıda 10-12 məhbusun adı qalıb. Məhkəmələri gedənləri məhbus siyahısına salmırıq. Çünki ola bilər ki, məhkəmə gedən vaxtı o şəxslərdən azadlığa buraxılanlar oldu. Biz həmin məhbusların məsələsini qaldıracağıq ki, bunları azad edin. Əgər azad olunmasalar, o zaman məhbus siyahımıza adlarını salacağıq. Özlərindən siyahılar hazırlayanlar həmin məhbusların vəziyyətlərini sadəcə çətinləşdirirlər. Bu yolla guya ki, həmin şəxslər azad olunacaqlar. Bilirəm ki, hazırladıqları siyahılarda adları olanların yarısı əldəqayırmadır. Orada elə şəxslər var ki, məhkəmələri, istintaqları gedir. Biz çalışırıq ki, onları məhkəmədən azad etdirək. Siyasi məhbus sözünü onlar ucuzlaşdırırlar. Məhbus siyahıları ətrafında yaranan qalmaqallarla bağlı bir söz deyə bilmərəm. Onların özləri yaxşı bilirlər ki, nəyə etiraz edirlər".

**"Turan" agentliyinin rəhbəri Mehman Əliyev siyasi məhbus siyahıları ətrafında yaranan narazılıqlarla bağlı mövqeyini bu şəkildə ifadə etdi:** "Siyasi məhbus kriteriyaları var. 166 nəfərlik hazırlanan siyahıda həmin kriteriyalar göstərilmişdi. Bu şəkildə 166 nəfər siyasi məhbus elan olunub. 94 nəfərlik siyahı hazırlayanlar konkret göstərirlər ki, istintaqın, prokurorluğun və məhkəmənin sənədləri var. Əvvəlki siyahıya Nardaran hadisələri ilə bağlı həbs edilənlərin adları salınmamışdı, lakin sonradan onların məhkəmə prosesləri başlayanda adları siyahıya salındı. 166 nəfərlik siyahıda Nardaran hadisələri ilə bağlı həbs edilənlərin adları salınıb. Onların bəzilərinin məhkəmələri gedir, bəzilərinin isə hələ məhkəmələri başlamayıb. Onların adlarının siyahılara salınmasına səbəb Nardaran hadisələrində siyasi motivlərin olmasıdır. O qrup hesab edir ki, Nardaranla bağlı həbs edilənlər "Müsəlman Birliyi Hərəkatı"na bağlıdırlar. Ona görə həmin şəxslər siyasi məhbus elan olunublar. İşçi Qrupunun siyahısını onların özlərindən soruşmaq lazımdır ki, nəyə əsaslanıb belə siyahı tərtib ediblər".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 242 (6563) 1 noyabr 2016



# ABŞ-ın seçdiyi "dünya prezidenti" kim olacaq?

Xalid KAZIMLI

**Dünyanın hər yerində bir ölkədə keçirilən prezident (eləcə də parlament) seçkisi həmin ölkənin özü ilə yanaşı, qonşu ölkələrdə də maraqla izlənir.**

Bu, təbiidir, adamlar maraqlanır ki, qonşu ölkədəki siyasi dəyişiklik onların ölkəsinə nə cür təsir edə bilər.

Tarix bir ölkədə hakimiyyətə gələn tiranın başqa ölkələrə, ilk növbədə qonşu dövlətlərə yaratdığı problemlərə dair faktlarla doludur. Məsələn, Hitler, Mussolini və b.

Bizim ölkəmizdə keçirilən prezident seçkisi Ermənistan vətəndaşları üçün çox maraqlıdır. Ermənistanda keçirilən analoji seçki də bizim üçün mühüm əhəmiyyət kəsb edir. Səbəblərini bilirsiniz.

Rusiyada keçirilən seçkilər isə bizim üçün də maraqlıdır, Ermənistan üçün də, Gürcüstan, Ukrayna, hətta Qırğızıstan və Latviyadan ötrü də.

Ancaq dünyada elə bir ölkə var ki, onda keçirilən prezident seçkisi Venesuela üçün də əhəmiyyətlidir, Yeni Zelandiyadan ötrü də, Azərbaycan və Ermənistan, hətta Rusiya və İran üçün də.

Bu ölkə ABŞ-dır. "Soyuq müharibə"nin bitməsindən, SSRİ adlı qırmızı rus imperiyasının çökməsindən sonra bu ölkədə keçirilən prezident seçkisi bütün dünya üçün maraqlıdır.

Başqa sözlə, sanki ABŞ vətəndaşları təkcə özlərinə yox, bütün dünyaya prezident seçirlər.

Nə yazıq ki, belədir və başqa superdövlətlər, özlərini sırf müstəqil və ABŞ əleyhdarı sayan ölkələr də bu acı reallıqla hesablaşmağa məcburdurlar.

Çünki ABŞ dünya hegemonudur, əlinin üstündə əl yoxdur, istənilən dövlətin həyatına, iqtisadiyyatına mənfi və ya müsbət planda təsir edə biləcək gücdədir.

Neft milyardları artdıqca əski sovet imperiyasının siluetini yenidən cızmağa çalışan azman Rusiyanın başına gələnlərin (iqtisadi tənəzzül, regional nüfuzun itirilməsi və s.) hamısı ABŞ-ın əl işləridir.

Budur, indi bu ölkə özünə prezident seçir. ABŞ prezidentinin kim olacağı Rusiya üçün də həyati əhəmiyyət daşıyır.

Elə bu səbəbdəndir ki, okeanın o tayında gedən prezident seçkisi kampaniyasında Rusiyanın da adı tez-tez çəkilir.

Prezidentliyə namizədlər özlərini xalqa Rusiyaya münasibət prizmasından təqdim edirlər. Biri digərini Rusiyanın əlinə oynamaqda, o biri bu birini Rusiyaya qarşı tutduğu sərt mövqeyin yanlışlığında ittiham edir.

Hazırda ABŞ xalqı kimi, dünya əhalisi də hansı namizədin daha faydalı olacağı məsələsində qərarsızdır.

Hər dövlətdə bu məsələyə korporativ yanaşma var. Ruslardan olsa prezident Donald Tramp olar. Ona görə ki, o, ABŞ-la Rusiyanın münasibətinə yenidən baxılacağına dair eyhamlar edib.

Türkiyənin siyasi fəal kəsimi Hillari Klintondan yanadır, ancaq onun PKK-ya yardım edəcəyinə dair vədləri əndişə yaradır. Bununla belə, Türkiyə ictimaiyyəti Donald Trampı daha etibarsız sayır.

Ermənistan üçün ABŞ-da kimin prezident olacağının çox böyük əhəmiyyəti yoxdur. Hansı namizəd 24 apreldəki ənənəvi çıxışında "erməni genosidi" sözünü işlətməyə söz versə, ermənilər avtomatik olaraq onun tərəfini tutacaqlar.

Hazırda ABŞ-da bir-biri ilə yanaşan hər iki namizədin Azərbaycanla xüsusi münasibətləri var. Hillari Klinton zamanında Azərbaycana gəlib, burada görüşlər keçirib. Donald Tramp isə Azərbaycanda biznes əlaqələrinə malikdir.

Hətta prezident Obama bu ilin əvvəlində Trampı "vurmaq" üçün onun Azərbaycanla əlaqəsini qeyd etmiş, demişdi ki, cənab Tramp Azərbaycan, Norveç və Argentinanın "gözəllik kraliçaları" ilə mühüm beynəlxalq görüşlər keçirib.

Prezident seçkisi kampaniyasının gedişi, ortalığa çıxan təfərrüat göstərir ki, bu dəfə ABŞ prezidenti kim olursa-olsun, ondan "dünya prezidenti" çıxmayacaq.

Hər iki namizədin siyasi persona olaraq miqyası elə bir ölçüdədir ki, onların heç birindən dünyanın taleyini yaxşı istiqamətə yönləndirəcək addımlar gözləmək mümkün deyil.

Düzdür, ABŞ-da ölkənin və dünyanın idarə edilməsi məsələsində əsas rolu xüsusi institutlar oynayır və dövlətin birinci şəxsinin iradəsi həmişə həlledici olmur, amma işin bu yerə gəlib çıxması həmin institutların da yetərsizliyindən xəbər verir.

Hər halda, hazırda ABŞ dünyanın bir çox ölkələri ilə, hətta ən yaxın müttəfiqləri ilə problem yaşayır.

Bu baxımdan, ümid ABŞ-da vitse-prezident olacaq şəxslərədir - bir X günündə onlar ABŞ prezidenti ola bilərlər deyə.

**ABŞ-da prezident seçkilərinə bir həftə qaldı. ABŞ tarixinin ən maraqlı və namizədlərin bir-birinə qarşı sərt mübarizəsi ilə keçən seçkilərindən biri sayılan bu seçkilərin qalibinin kim olacağı ilə bağlı proqnozların əksəriyyəti demokratların namizədi Hillari Klintonun xeyrinədir. Respublikaçıların namizədi Donald Trampın təkcə seçilmək şanslarının Klintondan az olduğu qeyd edilmir, bir sıra siyasətçilər, siyasi ekspertlər Trampı şizofrenik adlandırmaqdan çəkinmirlər. Azərbaycanda da Trampı bu cür adlandıran məşhur simalar var. Məsələn, tanınmış politoloq Hikmət Hacızadə "Yeni Müsavat"a müsahibəsində deyib ki, Tramp şizofrenikdir.**

# Müxalifət Trampı şizofrenik hesab etmir, amma...

## "Tramp faktı həm də ABŞ siyasi elitası üçün antibiotik rolu oynayır"



**O bildirib ki, Hillari Klintonun seçilməsini istəyir:** "Düşünürəm ki, Hillari seçilərsə, bu, Azərbaycan üçün müsbət hadisə olacaq. Tramp özü şizofrenik adamdır. Ondan, ümumiyyətlə, nə gözləyib- gözləmədiyimizi bilmirəm. Düzdür, indi deyirlər ki, guya o, Azərbaycanın dostudur, Azərbaycana pul qoyub və ya qoyacaq. Amma bunlar boş söhbətlərdir. Amma Hillari Klinton daha fərqlidir. Onun vəzifəsi Rusiyanı yerində oturtmaqdır. Və o, bunu eləməyə qadirdir. Obamanın etmədiyi, xarici siyasətdə qarışmadığı işləri Hillari edə bilər.

Rusiyanı yerində oturtsalar, həm Ukraynaya, həm Gürcüstana, həm də bizə və ümumiyyətlə, ətrafdakı bütün keçmiş sovet respublikalarına böyük xeyri olacaq. Demokratik islahatlar gedəcək, rusun maneələri dayanacaq. Qarabağ münaqişəsi bizim xeyrimizə həll oluna bilər. Çünki indi erməninin arxasında rus dayanır, sabah isə mümkündür ki, olmasın. Ona görə də Hillari daha yaxşıdır".

**Donald Trampın şizofrenik olduğu barədə deyilənləri digər siyasətçilər bölüşürlərmi?**

**Ümid Partiyasının sədri İqbal Ağazadə heç kimin aşağılanmasının tərəfdarı olmadığını bildirdi:** "Mən bu tipli ifadələrdən heç kim haqqında istifadə etmirəm. Amma hesab edirəm ki, Donald Tramp ABŞ cəmiyyəti üçün də, dünya üçün də adekvat hərəkətlərə malik olan namizəd deyil. Onun prezident seçilməsi nə Amerika cəmiyyəti üçün, nə də bütövlükdə dünya üçün xeyir verməyəcək. Biz bu cür fikirlərimizi ifadə edəndə boziləri qıcıqlanır, deyir ki, hər kəsin öz ölkəsi var, hər prezident öz ölkəsi üçün çalışır və sair. Bu tipli yanaşmalar qeyri-professional, diletant yanaşmadır. ABŞ-ın da, onun iqtisadiyyatının da, onun valyutasının da, hərbi gücünün də, hətta Dövlət Departamentinin bir bəyanatının da dünya üçün nə qədər qiymətli və prosesləri yönləndirici xarakter aldığını hər kəs bilir. Bu gün ABŞ dollarını faiz dərəcəsini qaldırsa, bütün ölkələrin milli valyutaları dəyərdən düşəcək. Bütün bunların hamısını görə-görə ABŞ-da seçiləcək prezidentin bizə aidiyyətinin olmadığını iddia eləmək qeyri-professionallığın və ya qərəzin nəticəsidir. ABŞ-dakı seçkilərin son bir həftəsi də nəticələri dəyişməyəcək. Düzdür, xanım Klinton haqqında müxtəlif mənbələrdən əks-təbliğat aparılır, amma bu, yüz faizlik elektorat şkalası üzrə cəmi 13 faiz itki ilə nəticələnir. Klintonun qələbəsi qaçılmazdır. Bu, həm ABŞ üçün, həm dünya üçün, həm də demokratikləşmə üçün faydalıdır. Mən Hillari Klintonun prezident seçilməsinin tərəfdarıyam".

**ADP sədri Sərdar Cəlaloğlu D.Trampın şizofrenik olduğu iddiasını bölüşmədiyini bildirdi:** "Şizofrenik uzun illər ABŞ-ın nəhəng milyarderi titulunu saxlaya bilməzdi. Tramp Amerikanın ən böyük sərvətə sahib iş adamlarından biridir. Buna nail olmaq elə də asan məsələ deyil. Tramp illərdir ABŞ iqtisadiyyatına təsir eləmək imkanına malikdir. Belə bir şəxs şizofrenik ola bilməz. Sadəcə olaraq, seçkilərdə orijinallıq üçün bəzi addımlar atılır ki, bu da diqqətləri cəlb etmək üçün edilir. Trampın verdiyi bir sıra bəyanatlar adi seçki şousunun tərkib elementləri idi. Trampı şizofrenik adlandırmaq olmaz. İndiki halda Hillari Klintonla Donald Trampın şansları təxminən bərabərdir. Nəzərə alsaq ki, ABŞ tarixində, ümumiyyətlə, bir partiya ard-arda iki dəfədən artıq müddətdə hakimiyyətdə qalmır və Demokratlar Partiyası da artıq 8 ildir hakimiyyətdədir. Bu baxımdan da ABŞ ənənələrinə görə ola bilsin ki, respublikaçı Tramp seçilə bilər. Mənə elə gəlir demokratların bu dəfə şansı onunla bağlı ola bilər ki, amerikalılar eksperiment kimi tarixdə ilk dəfə bir qadını prezident seçə bilərlər. Necə ki, Barak Obamanın birinci dəfə seçilməsində onun qara dərili olması rol oynamışdı, eləcə də Hillari Klinton ABŞ tarixində ilk qadın prezident kimi seçilə bilər. Tramp qarşıdakı günlərdə Klintona qarşı çox ciddi arqument ortalığa çıxara bilməsə, seçkidə Klintonun qalib gəlmək şansı daha çoxdur".

**Müsavat Partiyası başqanının müavini Elman Fəttah bildirdi ki, D.Tramp Amerika cəmiyyəti üçün ənənəvi olmayan namizəd tipidir. Həm Amerikanın xarici siyasəti, həm də dünya təhlükəsizlik sistemi baxımından təhlükə vəd edən siyasi fiqurdur:** "Təsadüfi deyil ki, namizədi olduğu Respublikaçılar Partiyasının tanınmış liderləri belə Trampı müdafiə etməkdən imtina edirlər. Trampın respublikaçıların namizədi ola bilməsi faktı isə eyni zamanda Amerika cəmiyyətinin Vaşinqton istebilişmentinə qarşı protestidir. Bu baxımdan, Tramp faktı, həm də ABŞ siyasi elitası üçün antibiotik rolu oynayır".

❑ Etibar SEYİDAĞA

## Tramp "Rusiya casusu" çıxarıldı

**ABŞ-ın Demokratlar Partiyasının lideri Harri Rid Federal Təhqiqatlar Bürosunun (FBI) rəhbəri Ceyms Komidən tələb edib ki, respublikaçıların prezidentliyə namizədi Donald Trampın Rusiya hökuməti ilə münasibətləri haqqında faktları açıqlasın.**

"Mənim sizinlə və milli təhlükəsizlik sahəsində çalışan digər yüksək rütbəli şəxslərlə söhbətlərim zamanı məlum oldu ki, sizdə Donald Trampın Rusiya hökuməti ilə əlaqələri haqqında sensasion informasiyalar var. Bu informasiyalardan xəbərdar olmaq cəmiyyətin haqqıdır",- deyə Harri Rid öz saytında dərc etdiyi açıq məktubda bildirib.

Harri Rid həmçinin FTB rəhbərini "ikili standart"larda ittiham edərək bildirib ki, FTB öz fəaliyyətində obyektiv deyil, çünki Hillari Klintona aid faktları dərhal "mənfi prizmadan təqdim etməkdən" çəkinmir. Qeyd edək ki, burada söhbət Hillari Klintonun elektron poçtundan oğurlanan məktubların yayımlanmasına FTB-nin reaksiyasından gedir. (virtualaz.org)

# “Mühacirətə getməyi biznesə çevirənlər var” - baş redaktordan hadisə kimi açıqlamalar

## Elçin Mirzəbəyli: “Azərbaycan mətbuatını ciddi şəkildə hər hansı bir problem gözlədiyini düşünmürəm”; “Maddi resursların inkişafı baxımından müəyyən durğunluq dövrü ola bilər, amma bunun medianı çökdürəcəyinə inanmıram”

**“Xalq Cəbhəsi” qəzetinin baş redaktoru, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədr müavini, şair, rejissor Elçin Mirzəbəyli ilə müsahibənin üçüncü - sonuncu bölümünü təqdim edirik:**

*(əvvəli ötən saylarımızda...)*

***- Elçin bəy, məşhur marşınızda bir misra var: “Qalx ayağa millət, boğmasınlar səsimizi”... Qalxdımı millət?***

- Həmin dövrdə qalxdı, bəli.

***- Sonrakı misrada “Bir bayraq altında birləşdir bizi”, deyirsiz... Birləşdimi millət, bir bayraq altındadırmı? Və Azərbaycanın indiki halında yenə belə bir xitaba ehtiyac duyursunuzmu?***

- Əgər nəzərə alsaq ki, Azərbaycan ərazilərinin 20 faizi işğal altındadır, digər tərəfdən də bizim 40 milyona yaxın soydaşımız İran adlanan dövlətdə, Cənubi Azərbaycanda yaşayır, onların da öz hüquqlarını təmin etmək imkanları yoxdur, şübhəsiz ki, millət bir bayraq altında birləşməyib. Daha qlobal miqyasa gələndə türk toplumunun bayrağı olsa da, hələ buna tam türk birliyi demək olmaz. Türk birliyi indi də vahid bir bayraq altında birləşməyib.

***- Siyasi baxışlarınızda sanki turançılıq meylləri var...***

- Kökdən gəlmə bir şey var. Bu düşüncə özümü dərk elədiyim vaxtdan gəlib. Mən Lənkəran şəhərində doğulmuşam. Bizim yaşadığımız küçəni süpürən bir xadimə qadın var idi. O zaman mən uşaq idim. Anam hər səhər tezdən qalxırdı, həmin qadını da evimizə çağırıb qabağına çay-çörək qoyurdu. Yadımdadır, o qadın mənə həmişə “tırk balası” deyərdi. “Tırk” da talışca, türk deməkdir. Bundan başqa, mənin dayım, Vaqif Hüseynov uzun illər boyu Masallıda çağırış qəzetinin redaktoru olub. Tanınmış yazarlardan biri idi. Onun o dövrdə yazdığı dissident şeirlər həddindən artıq çox idi. Onun 70-ci illərdə yazılmış şeirində belə bir misra var: “Vətənimi çalıb-çapır, bir göy gözlü sarı iblis”...

***- “Sarı iblis” deyəndə kimi nəzərdə tuturdu?***

- Rusları nəzərdə tuturdu... “Gör dünyanın harasıdır” şeiri də dissident ruhlu idi, rejimə etiraz edən, milli ruhda olan yazılar var idi. Həyətimiz geniş olduğuna və şəhərin mərkəzində yerləşdiyinə görə evimizə tez-tez dayımın qonaqları gəlirdi. Demək olar ki, Yazıçılar Birliyinin üzvü olan əksər şair və yazıçılar bizim həyətdə olmuşdular. Orada toplanırdılar. Mən onların söhbətlərinə qulaq asırdım, Güney Azərbaycan haqqında danışdıqlarını eşidirdim.

***- Azərbaycan məsələsinə sizin baxışınız necədir? Dünyadakı parçalanmış xalqlardan biri də Azərbaycandır. O perspektivə baxışınız necədir? Siz “Bütövçü”sünüzmü?***

- Bəli, mən Bütöv Azərbaycançıyam. İdeoloji olaraq o yapım indiyə qədər qorunur və heç vaxt da dəyişməyəcək.

***- Bəs bir ziyalı kimi onu mümkün hesab edirsinizmi?***

- Rauf bəy, bu, çətin prosesdir, ancaq həyatda mümkün olmayan heç nə yoxdur. Burada Azərbaycan xalqının iradəsindən asılı olan çox şey var. Eyni zamanda İran adlanan dövlətdə də baş verəcək proseslərdən çox şey asılıdır. Hərəkatın hansı yöndə gedəcəyindən, dünya güclərinin bu prosesə təsir etmək imkanlarının nə dərəcədə olacağından, bu təsirin müsbət və ya mənfi yöndə olacağından çox şey asılıdır.

***- Bütün bunları bildiyinizi nəzərə alaraq soruşuram, çoxmu uzaq perspektivin hədəfidir? Yoxsa bu, sadəcə, bir ülküdür, ideyadırmı?***

- Hətta bu bir ülkü də olsa, mən buna inanmaya bilmərəm. İnanmasam, o zaman bu günə qədər yaşadığım bütün o dəyərlərin hamısını itirərəm.

### “Yaradıcı insanın Azərbaycanda yaradıcılıqla məşğul olması üçün heç bir problem yoxdur”

***- Nə vaxtsa mühacirətə getmək istəmisinizmi? Siz, ümumiyyətlə, razı insansınızmı?***

- Mən, ümumiyyətlə, az şərtlərlə, normal şərtlər çərçivəsində yaşamağı bacaran adamam, elə də böyük iddialarım yoxdur. Mühacirətə getməyi düşünmürəm, çünki Azərbaycandan başqa heç bir ölkədə uzun müddət yaşaya bilmərəm.

***- Çoxları, xüsusən də ziyalı kəsimin təmsilçiləri son vaxtlar ölkədən getmək istədiyini ifadə edir...***

- Özlərini təsdiq edə bilmirlər, problemləri çoxdur. Bir qədər də gərgin atmosfer var cəmiyyətdə.

***- Ümumiyyətlə, mühacirətə gedənlərə heç haqq vermirsinizmi?***

- Hansı aspektdən gedənlərə? Burada yanaşma məsələsi var.

***- Müxtəlif aspektlərdən, məsələn, biri yaşaya bilmir, biri çörək qazana bilmir, biri siyasi baxımdan gedir. Mühacirətə getmək artıq azərbaycanlılar üçün populyar bir şey olub.***

- Mən bilirəm bu necə olur. Mühacirətə getməyi biznesə çevirənlər var. Hətta bu biznesin bölünməsi uğrunda mübarizə aparanlar da var, bunu da bilirəm. Bu, hər kəsə bəlli olan məsələdir. Amma öz ölkəndən çıxıb, siyasi mühacir kimi hər hansı ölkəyə üz tutmanın tərəfdarı deyiləm, müsbət baxmıram.

***- Sabah sizə siyasi basqılar olsa, işlərinizi itirsəniz, para qazana bilməsəniz, o zaman da getməyəcəksiniz?***

- Rauf bəy, bütün bu problemlər sizdə də olub və siz də bu ölkədən heç yana getməmisiniz, qalmısınız.

***- Mən getməmişəm, amma bu günə qədər qəzetimizin 10 əməkdaşı gedib.***

- Siz getməmisiniz, mən də getməyəcəyəm. Əvvəla, mən özümə qarşı siyasi basqıların olacağını gözləmirəm. Hətta bu olsa belə, öz vətənimdə ən kəskin şəraitdə yaşamağa üstünlük verərəm, nəinki kənara çıxıb ölkənin əleyhinə fəaliyyət göstərməyə.

***- Amma dünyada kifayət qədər nəhəng imzalar var ki, onlar mühacirətə gedərək özlərini ifadə ediblər, məsələn, Soljenitsın. Azərbaycanın da kifayət qədər ciddi mühacirət ədəbiyyatı var.***

- Azərbaycan mühacirət ədəbiyyatının tarixi fərqlidir. O zaman respublikamız dağıldı və insanlar rus-bolşevik işğalı ilə barışmadılar, ölkəni tərk elədilər. Soljenitsın ölkəsindəki ideoloji sistemlə razı olmadığı üçün mühacirət etmişdi, daha doğrusu, razılıq əsasında çıxıb getmişdi, Soljenitsının ölkədən çıxmasında hər hansı problem yox idi. Mən hesab edirəm ki, bu məsələyə fərqli yanaşmaq lazımdır. Onlar yaşadıqları mühitə, siyasi sistemin modelinə etiraz əlaməti olaraq ölkələrini tərk etmişdilər.

Azərbaycan müstəqil dövlətdir, müvafiq institutlar formalaşıb, hər birimiz daha yaxşısını arzulayırıq, daha çox görmək istəyirik. Ancaq potensialımız nədən ibarətdirsə, bu günə qədər də ona nail ola bilmişik. Şübhəsiz ki, daha yaxşısına nail olmaq mümkündür. O baxımdan, mən bu insanları həmin məşhur isimlərlə əlaqələndirmirəm. Bir də yaradıcı insanların etirazları ilə bu bir deyil.

***- Yaradıcı insanlara bir az da yaxşı təsir etmirmi mühacirət? Bu fikirlərin tərəfdarları var, istəyirəm siz oppenentlik edəsiniz.***

- Yaradıcı insanın Azərbaycanda yaradıcılıqla məşğul olması üçün axı heç bir problem yoxdur.

***- Ancaq heç bir mühit də yoxdur...***

- Guya gedib Almaniyada yaşayanda, Azərbaycan dilində əsərlər yazsa, kim oxuyacaq onu?

***- Azərbaycanlılar... İnternet imkanları var.***

- Fərqi nədir ki, onu burada da yaza bilər. Əgər Almaniyaya gedib alman dilində yazacaqsa, orada özünü təsdiq edəcəksə, dünyaya çıxa biləcəksə, getsin, bu bizə xeyirdir. Bir ingilis dilli azərbaycanlı Amerikada yaşayıb, Amerika ədəbiyyatının dahisinə çevrilməyi bacaracaqsa, yazsın. Mənim belə bir potensialım yoxdur.

***- Övladlarınızın necə, xaricdə yaşayıb-yaratmasını istərdinizmi?***

- Mən heç vaxt maneə qoymamışam. Əgər bir mütəxəssis kimi haradasa gərəkli olarlarsa, çalışmaq istəyərlərsə, niyə də çalışmasınlar.

***- Mən bilən, sizin övladınızın biri Türkiyədə oxuyur. Hərçənd Türkiyə xaric sayılmır, amma orada oxuyur. Onun üçün necə bir gələcək düşünürsünüz? Səmimi olmağınızı istəyirəm. Düşünürsünüzmü o, Almaniyada, Türkiyədə yaşasa, daha qabağa gedər, nəinki Azərbaycanda?***

- Bu, onun təhsilə verdiyi dəyərdən və necə mütəxəssis olacağından asılıdır. O indi birinci kursda oxuyur, hələ yolun başlanğıcındadır.



***- İxtisası nədir, hansı səmti götürüb?***

- İqtisadiyyat və idarəetmə fakültəsində təhsil alır. Mən hesab edirəm ki, hər hansı azərbaycanlı gedib Avropanın hansısa ölkəsində mütəxəssisə çevriləcəksə, bu həm də Azərbaycan diasporasının güclənməsi, nüfuzlu şəxslərin sayının artması deməkdir. Bu istiqaməti də düşünmək lazımdır. Digər tərəfdən, yaxşı bir mütəxəssisə ölkəmizdə də ehtiyac var. Özünün seçimindən asılı olacaq. Bir valideyn olaraq, deyə bilərəm ki, hər bir ata övladını yanında görmək istəyir.

***- Bir məsələ də var ki, son terror olaylarından sonra insanların bir çoxu övladını Türkiyəyə göndərməyə qorxur.***

- Bu gün Avropa ölkələri də tam təhlükəsiz deyil. Fransada terror hadisəsi baş verdi. Düzdür, Avropada Türkiyədəki qədər tez-tez baş vermir. Bir neçə ildir ki, oğlum YÖS imtahanlarına hazırlaşırdı. 7-ci sinifdən başlayaraq, bu uşaq hədəfini müəyyənləşdirmişdi ki, Türkiyədə oxuyacaq. Türkiyə türkcəsindən yetərlilik imtahanında ən yüksək nəticə göstərdi, sadəcə, öz üzərində çalışmaqla. Bundan sonra mən onun arzularının qarşısına sədd çəkə bilmədim. Ancaq o qorxu və narahatlıq bizdə də var.

***- Bir mövzuda bayaq söhbətimiz yarımçıq qaldı. Azərbaycan rəsmiləri deyir ki, ölkə postneft erasına daxil olur. Ancaq bu eraya daxil olan kimi, ilk zərbə qəzetlərə dəydi. Mətbuatın postneft erasında yaxın gələcəkdəki durumunu necə təsəvvür edirsiniz? Sizcə, böhran daha da dərinləşəcəkmi və kəmərsıxma siyasətinə hazırsınızmı?***

- Kəmərsıxma siyasəti hər kəsə aiddir və bu narahatlıq yaradan prosesdir. Səbəb iqtisadi böhrandır, neftin qiymətinin aşağı düşməsidir, nəqliyyat dəhlizlərinin yaxınlığında baş verən müharibələrdir və sair. Bu qlobal bir prosesdir. Bununla yanaşı, təəssüflər olsun ki, biz neft dövrünün imkanlarından istifadə edib qeyri-neft sektorunun inkişafı istiqamətində addımlar atmadıq. Bunun aradan qaldırılması üçün sürətli islahatlar lazımdır. Mən iqtisadçı deyiləm, bu mənim siyasətçi yanaşmamdır. Mənim qənaətimə görə, bazarın liberallaşmasına, sənaye müəssisələrinin açılmasına ehtiyac var. Tez gəlir gətirən sahələrə diqqət yetirilməlidir. Bu cür çox fikirlər səsləndirmək olar. Prosesin necə aparılacağını isə gələcəkdə görəcəyik.

***- Siz də bir müəssisənin rəhbərisiniz, insanlara maaş verirsiniz. Bu mənada nikbinsiniz, yoxsa bədbinsiniz?***

- Ümumi narahatlıq hər kəsdə var. Amma toparlanmağa ehtiyac var. Qənaətimə görə, çox da bədbin görmürəm. Azərbaycan mətbuatını ciddi şəkildə hər hansı bir problem gözlədiyini düşünmürəm. Maddi resursların inkişafı baxımından müəyyən durğunluq dövrü ola bilər, amma bunun medianı çökdürəcəyini düşünmürəm.

***- Siz çap mediasını təmsil edirsiniz və çap mediası ilə bağlı proqnozlar olduqca neqativdir. Ona hazırlaşırsınızmı? Bayaq dediniz ki, internet televiziya açmaq istəyirsiniz. Nə düşünürsünüz ki, xəbərdən para qazanan xəttin davamını apara biləsiniz?***

### “Çap mediası iflasa gedir; amma o, hansısa formada özünü qoruyub saxlayacaq”

- Çap mediası iflasa gedir. Amma o, hansısa formada özünü qoruyub saxlayacaq. Necə olacağını demək çətindir. Ola bilər ki, həftəlik qəzetlər formatında və ya hansısa formatda qalacaq. Gündəlik mətbuat ola bilər ki, sıradan çıxsın. Hələ ki dünyada çap mediası özünü qoruyub saxlamağa çalışır. Mənim qənaətimə görə, elə medianın sifəti də çap mediasıdır. İnternet medianın inkişafı və bizim ona qoşulmağımıza gəlincə, biz qısa bir müddətdə toparlana bilərik. Əgər bu sahə inkişaf edərsə, reklam bazarı liberallaşarsa, o zaman bizim toparlanmağımız üçün ciddi bir problem yoxdur. Çap mediasının ənənəvi bir sistemi var və uzun illədir o formalaşıb. Bu sistemin başqa bir formaya transformasiya edilməsində heç bir problem yoxdur. Necə ki siz, Yeni Müsavat qəzeti olaraq, daha sonra onlayn versiyada, musavat.com saytını ortaya qoymağı bacardınız, o problemlər bizdə də yaşanmayacaq. Kiminsə potensialı daha az, kimdəsə daha çox ola bilər. Ancaq əgər bundan sonra daha rəqabətli bir mühit formalaşacaqsa, buna nail ola bilərik.

Bu da reklam bazarından asılıdır. Çünki sən özün nəyin uğrunda mübarizə apardığını bilməlisən. Bizdə ənənəvi kollektiv var, bünövrə var və o bünövrənin üzərində hər şey yığmaq olar.

***- İxtisasca, təhsilcə quruluşçu rejissorsunuz. Bu cür adamlar səhnəni bütöv görürlər, çünki onlar səhnələşdirirlər. Siz Azərbaycan siyasi səhnəsini necə təsəvvür edirsiniz? Azərbaycanı bir səhnə kimi təsəvvür etsək, orada nələri yerində görmürsünüz?***

- Siyasi sistemdə?

***- Bəli.***

- Təəssüflər olsun ki, Azərbaycanda bu və ya digər şəkildə siyasi sistemdəki tarazlığı saxlamaq üçün ciddi bir müxalifət formalaşmadı. Detallarına varmayacağam, günahkar axtarmayacağam, çünki bu, çox geniş müzakirə mövzusudur. Yerində olmayan budur və buna görə də siyasi səhnədə dinamiklik nəzərə çarpmır. Səhnədə daha çox baş rolun ifaçısı var. Baş rolun ifaçısından başqa baş rola iddia edən digər rollar nəzərə çarpmır.

***- Şeirlərinizin birində belə bir misra var ki, “... haray var içimdə, Tanrım”. Yenə haray varmı? Yoxsa sükut dövrü başlayıb?***

- Haray həmişə var. Sadəcə, söhbət bu harayı yaradıcı potensiala çevirməkdən gedir, dağıdıcı potensiala yox. Bu harayı yaradıcı potensiala çevirmişəm. Qəzet yaradıcılığında da, poeziyada da...

❑ **Nərgiz LİFTİYEVA**
**Foto: Məhəmməd TÜRKMƏN**

**Yarızarafat deyir, heç son aylara qədər 70 yaşının tamamı, yaxud yubileyı barədə düşünmürmüş. Amma ətrafdakı dostlar bu barədə o qədər danışıb ki, artıq özü də qeyri-ixtiyari yubiley "tədarükü"nə başlayıb.**

# Rəsulzadə yadigarının acılar dolu həyat hekayəsi

## 70 yaşlı Rəis Rəsulzadə: "Soruşurdum ki, anam hanı, məni aldadıb deyirdilər "xəstəxanadadır, bir azdan gələcək"



Əhmədlidəki soyuq, nəmiş emalatxanada elektrik çaydanını isinməyə qoyduqdan sonra üst-üstə qalaqlanan bir-birindən gözəl rəsm əsərlərinə işarə edir həmsöhbətimiz...

Müsahibimiz Məhəmməd Əmin Rəsulzadə yadigarı, Azərbaycanın Əməkdar rəssamı Rəis Rəsulzadədir. 1 noyabr 1946-cı ildə anadan olan Rəis bəy ömrünün 70-ni tamamlayır. Yubileyi ilə əlaqədar noyabrın 4-ü saat 19.00-da Bakı Mədəniyyət Mərkəzində rəsm əsərlərinin sərgisi təşkil olunacaq. Mədəniyyət və Turizm Nazirliyi və Rəssamlar İttifaqının birgə təşkilatçılığı ilə keçiriləcək əsas sərgi isə noyabrın ikinci yarısında baş tutacaq.

Elə biz də böyük dəyər verdiyimiz yubilyarla yubiley söhbətinə görə getmişdik... Amma elə oldu ki, sonda yaralarının qaysağını qopardığıma özüm də peşman oldum. Nə etmək olar, sovet repressiya maşınının hədəfində olan Rəsulzadə soyadının daşıyıcıları ömür boyu məşəqqətlər yaşayıblarsa, bunları necə xatırlamamaq olar. Bu, bir nəslin timsalında Azərbaycan sevdalı insanların faciəvi tarixidirsə, yazılması daha faydalıdır bəlkə də...

**Rəis Rəsulzadə Azərbaycana 1965-ci ildə gəlib və Əzim Əzimzadə adına rəssamlıq məktəbinə daxil olub. Lakin M.Ə.Rəsulzadənin nəvəsi olduğuna görə hər hansı problemlə üzləşməyib:** "Onda mən tələbə gənc idim. Sovet hökumətinin "KQB"-si işləyirdi, yəqin ki, tam nəzarətsiz deyildim, amma heç nə hiss eləmirdim". Ardınca isə R.Rəsulzadə hərbi xidmətə yollanıb. Əsgərlikdən sonra Qazaxıstana, Karaqanda vilayətinə qayıtmalı olduğu halda, vətənini seçib və 1969-cu ildə təkrar Bakıya dönüb. Hansı ki, burada onu nə gözləyən vardı, nə də ev-eşik sahibiydi. Ona görə də həyatının ağır dönəmi vətəndə də davam edib: "Birgə oxuduğum dostlarımla, rəssam uşaqlarla bərabər emalatxanada qaldım. Daha sonra müəllimimin emalatxanasında yaşadım. Bundan sonra isə zirzəmidə bir otaq tutdum. Rəssamlara sifariş yerinə yetirmək üçün yer ayrılırdı da. Mən də orda həm yaşadım, həm də işlədim".

Yalnız ailə qurandan bir-iki il sonra 1985-ci ildə özünə mənzil ala bilib.

**Rəis bəyin bir qız övladı var. Amma ata-babasının yolunu davam etdirmir:** "Çox istedadlıdır. Hətta məndən də istedadlıdır. Amma qızım mənə dedi ki, sənin çəkdiyin əzabları mən çəkmək istəmirəm. Onun fikri ilə razılaşdım. Qız uşaqları üçün həqiqətən də çox çətindir".

***

*"70 yaş elə mərhələdir ki, səhhət cəhətdən problemlər olmasa, artıq hansı işləri necə görmək barədə daha ciddi düşünməli olursan. Rəssamı yaşadan elə yaradıcılıq işləridir, onu dəməsə də, bürüzə verməsə də, daxilində daim bu məsələ haqda düşünür"* - deyən müsahibimizə suallarımız səngimir:

***- Rəis bəy, siz necə, şah əsərinizi yaratmısınızmı?***

### "Qızım dedi, sənin çəkdiyin əzabları mən çəkmək istəmirəm"

- Mən bunu deyə bilmərəm. Lakin Mikelancelonun *(intibah dövrünün dahi heykəltəraşı və rəssamı-E.P.)* bir sözü vardı. 80 yaşında deyirdi ki, mənim indiyəcən yaratdıqlarım bir tərəfə, ancaq bundan sonra nə yaradacağamsa, o, daha əhəmiyyətli olacaq. Yəni sənətin əsl mahiyyətini üzə çıxartmaqdan söhbət gedirdi. Həqiqətən də elə oldu. Onun iki əsəri yarımçıq qalıb. Amma yarımçıq qalsa da bütün digər əsərlərindən üstün sayılır.

***- Əsərlərinizin sayını bilirsinizmi? Sizin necə, yarımçıq əsərləriniz varmı?***

- Yarımçıq əsərim yoxdur. Amma istərdim ki, bəzi əsərləri yenidən işləyim. Əsərlərimi saymıram, amma xeyli var.

***- İndiyədək yaradıcılığınız hansı ölkələrdə nümayiş olunub?***

- Çox ölkələrdə. Amerika, İsrail, Almaniya, Polşa, Rusiya, Əfqanıstan, Türkiyə, Kubada sərgilərim olub. Həmçinin Azərbaycanda.

***-Cümhuriyyət qurucusunun nəvəsi kimi sərginiz təşkil edilibmi?***

- 1994-cü ildə Məhəmməd Əmin Rəsulzadənin 110 illiyində sərgim olub. Düzdür, Rəsulzadənin nəvəsi kimi yox, repressiya olunmuşların sərgisi kimi təqdim etmişdilər. Hətta AzTV də işıqlandırmışdı.

***- Məhəmməd Əmin Rəsulzadənin yubileyi ilə bağlı prezident sərəncamı olduqdan sonra inam var ki, onun Əməkdar rəssam olan nəvəsinin də 70 illiyi ilə bağlı dövlət tədbiri, yaxud prezident sərəncamı ola bilər.***

- Nə bilim. Olarsa, lap yaxşı, çox sağ olsunlar. olmazsa da, heç nə deyə bilmərəm. Hər halda, Məhəmməd Əmin ayrı, onun yadigarı ayrı (gülür). Amma Azərbaycanın tarixidir də...

***

**...1937-ci ildə qapı döyülür və Rəsulzadə ailəsinin üzvlərinin cəhənnəm dolu həyatı başlanır. Rəis bəyin ata-anası elə sürgündə, Qazaxıstanda tanış olub evləniblər. Onun atası Bakıdan, anasının ailəsi isə Naxçıvandan sürgün edilmişdi. Sürgün yerini isə belə xatırlayır:** "Çox axmaq bir yer idi. Səhralıq, quraqlıq, aclıq... Ən yaxın dəmir yolu 50 km-likdən keçirdi. O zaman sovetlər türk millətinə qarşı soyqırım siyasəti yeridirdi. Əhalisinin sayına görə isə Azərbaycan ən çox repressiyaya məruz qalan respublika olmuşdu".

Cümhuriyyət qurucusu olmaqdan başqa "günahı" olmayan Məhəmməd Əminin analığı Maral xanım, həyat yoldaşı Ümbülbanu xanım, oğlu Azər bəy və qızı Xalidə xanım sürgün edilib. Azər Rəsulzadənin böyük bacısı Lətifə xanım isə 1941-ci ildə sürgünə göndərilib. "Rəsulun taleyindən heç nənəm ölənə qədər xəbər tutmayıb. Deyirdilər ki, elə oğlunun dərdindən ölüb" - deyir Rəis bəy.

**Yubilyarımız 70 illik həyatına xəyali olaraq qayıdanda hər bir epizodu olduğu kimi xatırladığını deyir:** "Hərdən olur, ötən onilliklər gözümün qabağından epizod-epizod ötüb keçir. Düzdür, mən Salvador Dali deyiləm. O deyirdi ana bətnində olmağım da yadımdadır. Amma həqiqətən, bir yaşımdan üzü bəri hamısı mənim yadımdadır. Yadımdadır, məni qucaqda tuturdular, SSRİ-nin xəritəsini göstərirdilər, bütün respublikaların paytaxtlarını göstərirdim. Hamı təəccüblənirdi ki, bu uşaq hardan bilir. Vaxtından qabaq oxumaq istədiyim üçün məktəb yaşına çatmamış məni məktəbə qoymuşdular. Şəkil çəkməyimi bilincə məndən çəkməyi istəyirdilər. Mən rus məktəbində oxuyurdum. Orada da sürgün olunmuş ziyalılar dərs deyirdi. Onların da bizə münasibəti yaxşı idi. Məndə rəssamlığa meyl anadangəlmə idi. Çox böyük həvəsim vardı. Rəng olmayanda qırmızı kərpici döyüb su ilə qarışdırırdım, ondan rəng düzəldirdim. Bundan başqa, kömürü əzib su ilə qarışdırırdım, rəng alınırdı. Yağlı boya istəyəndə tabaşirə yapışqan qatırdım və "boya" hazır olurdu. Çox haqq-hesablar var..."

**O deyir ki, Azərbaycandan sürgün edildiklərini uşaqlıqdan bilirmiş:** "Böyüklər həmişə olub-keçənləri xatırlayırdılar, bu arzu ilə yaşayırdıq ki, vətənə qayıdacağıq". Stalinin ölümündən, 1956-cı ildən sonra repressiya qurbanlarına münasibət dəyişir və 1959-cu ildə Rəsulzadə ailəsinə də bəraət verilir. Beləcə, Rəis bəyin də Vətənə yolu açılır...



### "Zirzəmidə həm yaşadım, həm də işlədim"

***

**Lakin Azərbaycana qayıtmaq ailə üzvlərinin çox az qisminə qismət olub:** "Böyük bibimin ailəsi Qazaxıstanda, sürgündə dünyasını dəyişdi. Həyat yoldaşını qızıl mədənlərində, katorqada işlədirdilər. Özü və kiçik qızı soyuqdan donmuşdu. Nənəm Ümbülbanu xanım, Maral xanım, mənim anam rəhmətə getdi. Ümumiyyətlə, Rəsulzadənin ailəsindən 20 nəfərə yaxın insan orda həlak oldu. Heç məzarlarının da yeri bəlli deyil. Məsələn, Maral xanım və Ümbülbanu xanım Çulaq Kurqanda rəhmətə getmişdi. Onlar Aral gölünün ətrafında yaşayırdılar. Sonra ailənin digər üzvləri oradan Taldı Kurqan tərəfə köçmüşdülər. Çünki əvvəlki yerdə iqlim çox sərt idi, ərizə yazıb nisbətən cənub tərəfə köçürülmələrini istəmişdilər".

**Rəis Rəsulzadə atasının çox böyük rəssam olduğunu deyir:** "O, Mikayıl Abdullayev, Böyükağa Mirzəzadə ilə bir yerdə oxuyub, onların içərisində lider idi, özləri də deyirdi. Amma sürgün onun bütün həyatını dəyişib".

**Atası Azər bəyin çərçivəyə salınmış, kətan üzərindəki portreti diqqətimi çəkir. Rəhmətlik bu portreti 1950-ci ildə yaradıb:** "Güzgüyə baxıb, öz-özünü çəkib. Nə vaxtsa lampanı portretin üstünə aşırmışdılar, bir tərəfi yanmışdı. Mən yanan, sıradan çıxan yerləri bərpa elədim".

**Novxanı məzarlığında, Məhəmməd Əmin Rəsulzadənin atası ilə yanaşı uyuyan Azər Rəsulzadə sovet dövründə bir neçə dəfə Azərbaycanda olub. Rəis bəyin xatirələrindən:** "Atam 1988-ci ilin meydan hadisələri dövründə bura gəlmişdi. O zaman indiki "Həzi Aslanov" metro stansiyasının yaxınlığında yaşayırdım. Meydana bir yerdə getmişdik. Qalanmış tonqallara baxdı, dedi, "sovet hökuməti bunları bağışlamayacaq". O bilirdi də vəziyyəti. Sonra 20 Yanvar hadisələri baş verdi".

R.Rəsulzadə əlavə edir ki, atası 1949, 1952, 1959, 1961-ci illərdə də Azərbaycana gəlib və Qazaxıstana qayıdıb.

***

**Yubilyarımız üçün nə qədər ağır olsa da, anası barədə də danışmasını istəyirəm. Uzun pauzadan sonra danışır:** "Anam rəhmətə gedəndə mənim 3 yaşım vardı. Həyətdəki qarmaqarışıqlıq yadıma gəlir. Onu xatırlayıram ki, çoxlu ayaqlar o yan-bu yana gedir və qırmızı bir parçanı xatırlayıram. Mafənin üstünə salınan parça beynimə həkk olunmuşdu. Bundan sonra ki, anam yox oldu. Soruşurdum ki, bəs anam hanı, anam hanı? Məni aldadıb deyirdilər "xəstəxanadadır, bir azdan gələcək". Sonra uşaq olsam da, başa düşdüm ki, yox, bu, başqa məsələdir, daha soruşmadım..."

**Həmsöhbətimizi çox ağır xatirələrdən ayırmağa çalışıram. Amma çətindir. Rəis bəy davam edir:**

- İndi geri baxanda adam özünə inanmır. Qəribə gəlir ki, necə olub bütün bunlara dözə bilmişəm. Hətta çox illər sonra burada elə anlar olub ki, həmkarlarım deyiblər "sən çıx get Bakıdan, burada alınırmı". Amma indi baxırsan ki, hansısa qüvvə səni burada saxlayıb..."

**R.Rəsulzadə ilk dəfə Ankaranın Əsri məzarlığında uyuyan babasının məzarını 1997-ci ildə ziyarət edib:** "Bir qrup rəssamla İstanbula ezamiyyətə getmişdik. Ordan da Ankaraya getdim, Milli Kültür Dərnəyində oldum, rəhbərliklə görüşəndən sonra Məhəmməd Əminin məzarını ziyarət etdim. Amma atam ziyarət edə bilmədi. Təbii ki, istəyirdi, amma qismət olmadı..."

**Rəis bəy daha bir faciəli taleli can-ciyərindən bəhs edir:** "Məhəmməd Əminin əmisi oğlu Məhəmmədəli var idi, 100 yaşına qədər İstanbulda yaşadı. Onun Azərbaycanda yaşayan oğlu Aydın - atamın xalası oğlu - 80-ci illərdə gedib onu tapmışdı, atası ilə görüşə bilmişdi. 3 ay yanında qalandan sonra qayıtdı. Artıq o da rəhmətə gedib. Atasının məzarı isə Türkiyədə, İstanbuldadır. Hətta onlar repressiyaya məruz qalmasınlar deyə, soyadlarını da dəyişib "Eminov" etmişdilər, ana familiyasını götürərək. Amma buna baxmayaraq, onları da sürgün etmişdilər, ciddi nəzarətdəydilər".

Bu gün M.Ə.Rəsulzadənin qohum-əqrəbalarından bəhs olunanda adətən Rəis bəydən danışılır. Amma Rəis bəyin özündən kiçik bacısı hazırda Sibirdə yaşayır. Elə o zaman ailə qurub və Azərbaycana gələ bilməyib. Onun 3 qız övladı var. Rəis bəyin bir neçə il əvvəl rəhmətə gedən bibisi qızı Firuzə xanımın övladları, nəvələri isə Azərbaycanda yaşayır.

**Söhbətimizi Rəis bəyin yaratdığı əsərlərə tamaşa edərək davam etdiririk. Bir-birindən gözəl təbiət mənzərələri üstünlük təşkil edir. Deyir, Goranboydan Qubaya, Şamaxıdan Naxçıvana qədər ölkənin əksər yerlərində olub:** "İnşallah, Lerik tərəfə getmək istəyirəm. Özü də gedib baxıb çəkdin, bununla iş bitmir. Gərək gedəsən, bir az mühitə uyğunlaşasan, obyekti mənimsəyəsən, gərək o, qəlbinə yatsın, sonra kətana köçürülsün. Yoxsa elə-belə nəyisə təsvir etmək boş şey olur. Qəlbinin süzgəcindən keçirməlisən".

**Və Qarabağ xatirəsi: 1992-ci ildə Ağdamın Şellisində, Əsgəranda olub. Şuşanı isə sonuncu dəfə 1986-cı ildə ziyarət edib:** "Çoxdan arzusunda idim. Şuşa çox gözəl yerdir. Təsəvvür edin, gedirsiniz, buludlar ayağınızın altında...Cıdır düzündə də şəkillər çəkmişəm. O xatirələr unudulmazdır. Alah qismət eləsin, bir daha o yerlərə qayıda bilək!"

**Elşad PAŞASOY**
**FOTO: "YM"**

YENİ MÜSAVAT
N 242 (6563) 1 noyabr 2016

**Azərbaycan Konstitusiyasının yeni variantı normativ hüquqi aktların vahid internet elektron bazasında yerləşdirilib. Bu il sentyabrın 26-da keçirilmiş referendumda konstitusiyaya dəyişikliklər qəbul edilib. Oktyabrın 12-də qüvvəyə minmiş referendum aktına əsasən, ana qanunda prezident seçilmək, baş nazir təyin edilmək, hakim olmaq, deputat mandatı almaq, nazir postu tutmaq üçün yaş senzi aradan qaldırılıb, prezidentin səlahiyyət müddəti 5 ildən 7 ilə artırılıb, dövlət başçısına növbədənkənar prezident seçkisi elan etmək, parlamenti buraxmaq hüququ verilib.**




# Vitse-prezidentlər nə zaman təyin olunacaq?

## Prezident Nazirlər Kabinetinə 6 ay vaxt verib; **Fazil Mustafa:** "Səlahiyyət bölgüsü aparılmasa, müəyyən prosedur və idarəetmə problemləri yarada bilər"



Başqa bir əsas yenilik vitse-prezident postlarının təsisini nəzərdə tutur. Birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan prezidenti vəzifəyə təyin və vəzifədən azad edir, növbədənkənar prezident seçkisi zamanı dövlət başçısının səlahiyyətləri birinci vitse-prezidentə keçir.

Bu dəyişikliklər artıq bir aya yaxındır qüvvəyə minib. Prezidentin növbədənkənar seçkilər təyin edəcəyi və vitse-prezidentlər təyin eləyəcəyinə gözləntilər isə reallaşmadı. Ölkə prezidenti İlham Əliyev birinci məsələyə-növbədənkənar prezident seçkilərinin keçiriləcəyi haqda deyilənlərə iki həftə öncə son qoydu. Prezident bu barədə deyilənlərin əsassız olduğunu Rusiyanın "Sputnik" Beynəlxalq İnformasiya Agentliyinə müsahibəsində bəyan etdi. Bildirdi ki, seçkilərin vaxtını dəyişmək niyyəti yoxdur. Çünki buna zərurət yoxdur.

Vitse-prezidentlərin təyinatı məsələsi isə hələ ki açıq qalır. Ölkə başçısı hələ ki nə təyinat edib, nə də vitse-prezidentlər məsələsi ilə bağlı açıqlama verməyib.

Maraqlıdır, yeni konstitusiyaya uyğun olaraq vitse-prezidentlik institutu nə zaman reallaşacaq? Bu posta təyinatlar nə zaman baş tutacaq?

İstiqlal.az-ın yaydığı məlumatda bildirilir ki, vitse-prezidentlik təsisatı ən uzağı 2017-ci il aprelin 12-nə qədər yaradılacaq və uyğun təyinatlar olacaq. Məlumatda belə izah verilir ki, prezident İlham Əliyevin "2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının qüvvəyə minməsi ilə əlaqədar müvafiq hüquqi aktların layihələrinin hazırlanması barədə" sərəncamı tam icra edildikdən sonra bu təsisat yaradılacaq və vitse-prezidentlər təyin ediləcək. Sərəncam 12 oktyabr 2016-cı ildə verilib və icra müddəti 6 aydır. Sərəncamda Nazirlər Kabinetinə altı ay vaxt verilir ki, hüquqi aktların konstitusiya dəyişikliyinə uyğunladırılmasını təmin etsin və dəyişikliklərdən irəli gələn müvafiq hüquqi aktların layihələrini hazırlayıb prezidentə təqdim etsin. Bu müddət bitəndən sonra vitse-prezident postlarına təyinat olacaq. Müddətin bitməsi üçün 2017-ci il 12 aprel son tarixdir. Lakin bu o demək deyil ki, mütləq aprelin 12-dən sonra təyinatlar olacaq. Dəyişikliklərdən irəli gələn müvafiq hüquqi aktlar hazırlandıqca qəbul və icra ediləcək. Böyük ehtimalla sözügedən təyinatlar ilin sonuna reallaşacaq. Ancaq aprelin 12-nə qədər yubana da bilər.

**Milli Məclisin üzvü, BQP sədri Fazil Mustafa isə "Yeni Müsavat"a bildirib ki, konstitusiyada dəyişiklikdən sonra növbədənkənar prezident seçkilərinin mütləq keçirilməsi və vitse-prezidentlərin dərhal təyin edilməsi tələbi qanunda əksini tapmayıb:** "Prezidentə əlavə səlahiyyətlər verildi, müvafiq institutların yaradılması konstitusiyada əksini tapdı. Prezident öz mülahizəsinə görə müəyyən eləyə bilər ki, seçki erkən, yoxsa vaxtında keçirilsin. Prezidentə səlahiyyət verilib, növbədənkənar seçkilər təyin edə də bilər, təyin etməyə də bilər. Konstitusiyada "növbədənkənar seçkilər mütləq təyin edilməlidir" kimi tələb yoxdur. Konstitusiyada yeni dəyişikliyə görə, prezident bundan sonra 7 illiyinə seçiləcək. Bu dəyişiklik bütün hallarda keçmişə şamil olunmur. Yəni 2013-cü il seçkilərində seçilmiş prezident beş illiyinə seçilib və bu müddət 2018-ci ildə bitəcək. Prezident istəsə, bu beş illik müddət tamam olmadan yeni seçkilər təyin edə bilər, istəsə, yeni seçki təyin etməz və seçki 2018-ci ildə keçirilər".

**Vitse-prezidentlərin təyinatı məsələsinə gəldikdə, deputat qeyd etdi ki, müəyyən əsasnamələrin hazırlanması, bu vəzifədə olan şəxslərin müəyyən statuslarının dəqiqləşdirilməsi, sənədləşdirilməsi vaxt aparan işlərdir. Çox güman ki, bu məsələlərin həllindən sonra vitse-prezidentlərin təyinatı məsələsinin üzərinə gələnəcək:** "Çünki dəqiq səlahiyyətlər bölgüsü aparılmalıdır ki, məsələn, bilsin ki, baş nazirin səlahiyyətləri nədir, vitse-prezidentlərin səlahiyyətləri nədir. Səlahiyyət bölgüsü aparılmasa, müəyyən prosedur və idarəetmə problemləri yarada bilər. Bu məsələlər həllini tapandan sonra prezident istənilən vaxt birinci vitse-prezident və vitse-prezidentlər təyin eləyə bilər. Qanunda konkret tələb qoyulmayıb ki, dəqiq filan vaxtda və ya filan vaxta qədər bu təyinatlar həyata keçirilməlidir. Prezidentin səlahiyyətindədir ki, istədiyi vaxt təyinat həyata keçirsin. Ona görə də təyinatların hələ reallaşmaması qanun pozuntusu deyil".

❑ **Etibar SEYİDAĞA**



# Milli valyutanın perspektivi - nələr gözlənilir?

## **Fikrət Yusifov:** "Manatın məzənnəsində bundan sonra tədrici yumşalmaların baş verəcəyi proqnozlaşdırılır"

**Milli valyuta olan manat hər gün kiçik həcmdə olsa da, ucuzlaşmaqdadır. Ekspertlər son bir həftədə artan bu tendensiyanın təhlükəli olduğunu bildirirlər. Qeyd edilir ki, bu, ilin sonuna doğru növbəti devalvasiya ilə nəticələnə bilər.**

**İqtisadçı alim Fikrət Yusifov** musavat.com-a bildirib ki, manat bir ildən bir qədər az vaxt ərzində dəyərini iki dəfə kəskin şəkildə itirdikdən sonra cəmiyyətdə növbəti devalvasiya təhlükəsinin olub-olmaması sualı kifayət qədər aktuallaşıb: "Öncə onu demək lazımdır ki, bütün hallarda, manatın keçən ilin fevral və dekabr aylarının 21-də baş vermiş kəskin devalvasiyasının təkrarlanması həm nəzəri, həm də praktiki cəhətdən real deyil. Belə ki, artıq manatın məzənnəsi rəsmi olaraq valyuta bazarında, tələb və təklif əsasında müəyyən olunur. Bu səbəbdən də onun məzənnəsində bundan sonra da hər hansı bir dəyişiklik tədricən baş verəcək. Lakin bu gün məzənnə ilə bağlı bütün məqamların tam olaraq bazarın öhdəsinə buraxıldığını demək sadəlövhlük olardı".

**Ekspertin sözlərinə görə, vəziyyət Mərkəzi Bankın nəzarəti altındadır:** "Manat tam sərbəst buraxılmayıb, o, idarə olunan üzən məzənnəyə keçirilib. Mərkəzi Bank milli valyutanın real dəyərini müəyyənləşdirmək məqsədilə bu sahədə əsas indikator rolunu oynayan qara bazarın məlumatlarından da istifadə edir. Əslində burada təccüblü heç nə yoxdur. "Qara bazar" manatın məzənnəsi ilə bağlı əsl reallığın nədən ibarət olduğunu müəyyənləşdirməkdə qeyri-rəsmi bir alət kimi istifadə oluna bilər".

**F.Yusifov qeyd edib ki, ilin sonuna qədər və ondan sonrakı dövrdə manatın aqibəti, bugünkü məzənnəsinin real dəyərini əks etdirib-etdirməməsi kimi suallar indi cəmiyyətdə mövqeyindən asılı olmayaraq hər kəsi düşündürür:** "Manatın məzənnəsində bundan sonra tədrici yumşalmaların baş verəcəyi gözləniləndir. Bunun əsas səbəbi isə neftin qiymətlərinin kəskin şəkildə aşağı düşməsi ilə müşayiət olunan qlobal iqtisadi böhranın yaratdığı valyuta itkiləridir. Valyuta gəlirləri bir tərəfdən neftin qiymətlərinin və onun hasilatının, digər tərəfdən isə qeyri- neft sektorundan ixracın həcminin aşağı düşməsi hesabına azalıb. Günün reallığı bundan ibarətdir ki, hazırda ölkənin tədiyyə balansında mənfi saldo yaranıb və bütövlükdə manatın möhkəm valyuta təminatında çətinliklər meydana çıxıb".

**Vəziyyətdən çıxış yollarına gəldikdə isə F.Yusifov deyib ki, əslində burada mürəkkəb və ya kiminsə bilmədiyi heç nə yoxdur:** "Sahibkar kimi qurub-yaratmaq qabiliyyəti yüksək səviyyədə olan iş adamlarımızın qarşısındakı bütün maneələr tam aradan qaldırılmalıdır. Bu gün yerli icra hakimiyyəti orqanlarının rəhbərləri ölkə prezidentinin onların qarşısında qoyduğu tələblərə uyğun olaraq iş adamlarının yanında olmalı, yeni üzlərini sahibkarlara tutmalıdırlar. Hər hansı bir müəssisənin nə səbəbdən işləməməsi və ya öz gücündən az çalışması yerli idarətmə qurumlarını ən çox narahat edən bir məsələyə çevrilməlidir. Bir sözlə, indi məmur sahibkara yardımçı olmaq vəzifəsini öz üzərinə götürməlidir. Belə olursa, onda yerlərə yeni investisiyaların axını baş verəcək. Ölkə iqtisadiyyatının neftdən asılılığının aradan qaldırılmasının yeganə düzgün və ən qısa yolu budur. Son bir ildə ölkə başçısı tərəfindən sürətli iqtisadi islahatların aparılmasını və nəticə etibarilə real sektorun lazım ola biləcək bir səviyyədə inkişafını təmin etməyə yönəlik kifayət qədər qətiyyətli qərarlar qəbul edilib. İndi söz bu qərarların icrasını həyata keçirməli olan aidiyyəti icra strukturlarınındır. Milli valyutanın sabitliyi də məhz ölkə iqtisadiyyatının real sektorunun bundan sonra necə inkişaf edəcəyindən asılı olacaq".

**Ekspertin fikrincə, bu gün ölkəyə qeyri-neft sektorundan daxil olacaq möhkəm valyutanın həcminin artırılmasına böyük ehtiyac var:** "Hazırda bizim möhkəm valyuta ehtiyatlarımız 40 milyard dolları ötsə də, bu ehtiyatları manatın məzənnəsinin müəyyən bir səviyyədə saxlanılması məqsədlərinə istifadə etmək olmaz. Manatın məzənnəsini təmin edə biləcək əlavə valyuta gəlirlərini real sektordan ixracı artırmaq hesabına təmin etmək lazımdır. Bunun üçün bütün imkanlar mövcuddur. Azərbaycan iqtisadiyyatının real sektorunun əsas istiqamətləri hesab olunan qeyri-neft sənayesinin, aqrar sektorun, tranzit yükdaşımaların və turizmin inkişafına dair son bir il ərzində qəbul edilmiş qərarların icrası yaxın bir neçə il ərzində bu sahələrdən kifayət qədər valyuta gəlirlərinin daxil olmasını təmin edə bilər".

❑ **RÖYA**



# Femida xanımın bürüncəyi

Zamin HACI
zaminhaci@gmail.com

**Hökumət keçmiş MTN generalı Çovdarovun məhkəməsini qapalı keçirmək qərarına gəlib. Jurnalistlər bundan narazılıq edirlər, çünki savadsızdırlar. Əslində bu addımla jurnalistikanın qayğısına qalırlar: nə biləsən Çovdarov məhkəmədə jurnalistlərin başına hansı oyunu açar? Adamın əlindən vaxtilə zeytun ağacının altında dayana bilmirdiniz, nə tez yadınızdan çıxdı? Ax, ax, qədirbilməz xalq... 92-93-də küçəyə çıxmaq olmurdu, indi ayıb deyilmi məhkəmədə iştirakı arzu edirsiniz? Harınlamaq budur ey. Milləti özbaşına qoysan sabah deyər papağı da ver - düzgün seçki keçirt. Offşorda mənə də şirkət aç. Nə bilim, oğlumu general qoy. Allah eləməsin, kış-kış... Bizim öz yolumuz vardır.**

Üstəlik, belə məhkəmələrdə istintaq eksperimentləri də aparılması mümkündür. Bir-iki ay bundan qabaq Pakistan məhkəməsində maraqlı hadisə olmuşdu. Cinayət işində qumbara partladılması əhvalatı varmış, hakim deyib ki, o qumbaranın bənzərini "gətirin studiyaya", baxaq. İşçilər proses gedə-gedə qumbaranı gətiriblər, biri isə çox ağıldan deputat imiş *(bu, intellektin təzə ölçü vahidir, özümün icadımdır - Z.H.)*, qumbaranın iş prinsipini hakimə göstərmək istəyibmiş. Sonrası havaya uçan məhkəmə salonu, hakimin dümbül sümüyündən qəlpə yarası kimi şeylər olmuşdur - şükür, ölüm-itim baş verməyibdir. Pak islam dövlətidir, yəqin o üzdən Allah saxlayıb. Ümumiyyətlə, fikir versəniz Pakistanda əmin-amanlıqdır, çünki Allahın qəzəbinə səbəb olacaq işlərə girmirlər. Misal üçün, orda hansısa qız uşağı kitab oxumaq istəyəndə götürüb üzünə sulfat turşusu atırlar, söhbət bağlanır. Ancaq Yaponiyada qızlar cins şalvar geydiyindən hər gün sunami olur. Bu haqda AMEA alimlərindən Əkrəm Həsənov yoldaşın ciddi araşdırmaları var, istəyən tapıb baxsın.

Nəsə, söhbəti yayındırmayaq, iş ondadır ki, bizim məhkəmələrdə adətən dəlil-sübut olmur, adamı qumbara nümayişi-zadı olmadan 10 illiyə basırlar gedir. Dəlil gördün - qığını da görmədim. Elə yaxşısı budur, çünki dəlil adamın əlində partlasa, salamat hakim qalmaz, bədbəxt olarıq, təzədən AXC-Müsavat cütlüyü hakimiyyətə gələr. Ondan sonra gəl bu qışın günündə Ağdərəyə qayıt.

Sözümün canı odur ki, Akif Çovdarovun məhkəməsinə jurnalistləri buraxsan, birdən orda istintaq eksperimenti keçirilsə, tutub sizi girov götürsə, əminizdən-dayınızdan pul dilənib azadlığa çıxsanız, yaxşıdırmı? Bunu mən havadan yazmıram. Akif müəllimin tutub, yolub buraxdığı bütün məmur və iş adamlarının ifadələrində adətən belə söhbət keçir: "Çağırdı idarəyə, dedi 1 milyon dollar verəcəksən. Mən də qohumlara zəng elədim, hərə bir az pul gətirdi, yığdıq verdik". Guya heç birinin özündə o qədər pul yox imiş. Nə qəribə sistemdirsə, hətta biznesmenin də Akif müəllimə verməyə 100 min manatı olmayıb, uşağının maşınını satıb reket haqqını ödəyibdir. Metro idarəsini köstəbək kimi eşib illərlə altını dolduran bir tip isə hətta deməşdi ki, guya Çovdarova verdiyi 3 milyon dolları 40 il ərzində yeməyib-içməyib maaşından toplayıbdır.

Məhkəmə həm də belə söhbətlərin açılmasına görə qapalı olacaqdır. Xalq qələt edər elitanın pul söhbətlərindən xəbərdar olar. Dövlətçiliyi, sabitliyi sarsıtmaq düz deyil. Misal üçün, məhkəmə açıq olsa xalq biləcək ki, metro rəisi generala verdiyi pulun bir hissəsini "28 may" metrosunun qabağında papaq qoyub dilənərək yığmışdır. Bundan sonra hərə bir papaq götürüb gedib uzanacaq metronun qabağına, deyəcək sən o yanındakı generalın canı, bir nəzir ver. Verərsən pis, verməzsən pis. Çətin durumdur. Tutaq ki, verdin, birdən "Vaşinqton Post" qəzetinin müxbiri qıraqdan fotosunu çəkdi, verdi qəzetə: "Azərbaycanda dilənçilik var!"

Məhkəmə Akif müəllimin bir müddət bundan qabaq aclıq aksiyası elan etməsi üzündən də qapalı keçirilə bilər. Bu temada şair Məhəmməd Füzulinin *(bu, "sabes"dən prezident təqaüdü almağa gedib salam verərkən rüşvət istənilən həmin məşhur sənətkardır - "ASAN xidmət" olsaydı, belə durum yaranmazdı)* misraları yerinə düşür:

***"Eşqdən canımda bir pünhan mərəz var, ey həkim!***
***Xəlqə pünhan dərdim izhar etmə zinhar, ey həkim!***
***Var bir dərdim ki, çox dərmandan artıqdır mənə,***
***Qoy məni dərdimlə, dərman eyləmə, var, ey həkim!"***

Yəni deyir, məhkəmənin qapalı keçirilməsini özüm istəyirəm. İndi söz əlaqədar təşkilatlarındır.



# Cəbhə xəttində düşmən təxribatları artır

## Müdafiə Nazirliyindən açıqlama gəldi; ekspertlər son durumu şərh edirlər

**Oktyabrın 30-da axşam saatlarından başlayaraq erməni silahlı bölmələri cəbhənin şimal-qərb istiqamətində yerləşən bölmələrimizin mövqelərini 60 millimetrlik minaatanlardan, qumbaraatanlardan, həmçinin "AQS-17" tipli avtomatik qumbaraatanlardan və iriçaplı pulemyotlardan atəşə tutub.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Nazirliyin məlumatında bildirilir ki, qəti cavab tədbirləri nəticəsində düşmən susdurulub. Müdafiə Nazirliyi bir daha xəbərdar edir ki, qoşunların qarşıdurma xəttində vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür.

Qeyd edək ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bölgəyə səfərinin ardınca işğalçı Ermənistan açıq şəkildə aqressiv mövqe nümayiş etdirir, təmas xətti boyunca təxribatların sayını artırıb və Azərbaycanı müharibəyə sövq edən mövqe sərgiləyir. Azərbaycan rəhbərliyi Qarabağ ermənilərinə muxtar respublika statusundan başqa heç bir güzəştə getməyəcəyini qəti şəkildə bəyan edəndən sonra həmsədrlərin işğalçını yola gətirmək üçün hərəkətə keçəcəyi gözlənilsə də, bu, baş vermədi. Belə bir vəziyyətdə xarici işlər nazirlərinin görüşünü təşkil etməyə, ardınca Azərbaycan və Ermənistan prezidentlərinin bir araya gəlməsini reallaşdırmağa cəhdlər göstərən vasitəçilər nədənsə ermənilərin həyasızlığını görməzliyə vurur. Rəsmi İrəvanın davranışlarından da bəlli olur ki, qarşı tərəf konstruktiv mövqedən imtina xətti götürüb. Ermənistan parlamentinin vitse-spikeri Eduard Şarmazanov deyib ki, yaxın vaxtlarda Azərbaycan və Ermənistan prezidentlərinin görüşü planlaşdırılmır. Azərbaycan tərəfi isə belə görüşə qəti şəkildə razı deyil.

Cəbhə xəttində artan düşmən təxribatlarında "seçki izi"nin olduğunu ötən sayımızda yazmışdıq. Musvat.com xatırladıb ki, bir neçə aydan sonra Ermənistanda parlament seçkiləri keçiriləcək. Bu seçkilərdən sonra isə ölkədə parlament üsul-idarəsi bərqərar olacaq, əsas səlahiyyətli, 1-ci şəxs prezident deyil, baş nazir olacaq. Siyasi analitiklərə görə, hazırkı prezident Serj Sərkisyan məhz o üzdən seçkilərdə nəyin bahasına olur-olsun, öz partiyasının qələbəsini təmin edib yeni baş nazir postuna yiyələnməyi hədəf götürüb. Bir qayda olaraq Qarabağ faciələrindən hakimiyyəti üçün bəhrələnən Sərkisyan bu dəfə də erməni əsgərləri güllə qarşısına verib siyasi hakimiyyətinin ömrünü uzatmağa çalışır.

**Vəziyyəti şərh edən politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, ermənilərin cəbhə bölgəsində fəallığını artırması hərbi qarşıdurma ehtimalını artırır:** "Əslində məntiqlə Ermənistan cəmiyyəti müharibədə maraqlı olmamalıdır. Çünki növbəti qarşıdurma zamanı Ermənistanın yeni itkisi olacaq. Onsuz da bu ölkədə əhalinin sayı azalır, gənclər ölkəni tərk edirlər, olanların da Ermənistandan kənarda Dağlıq Qarabağda öldürülməsi işğalçı ölkədə demoqrafik vəziyyəti bir az daha ağırlaşdıracaq. Buna baxmayaraq, Ermənistan hakimiyyətinin cəbhə bölgəsindəki istənilən təxribatına hazır olmalıyıq. Çünki bu hakimiyyət cəmiyyətin istək və arzuları narahat etmir. Ermənistan prezidenti Serj Sərkisyan indiki ağır iqtisadi və sosial vəziyyətdə ancaq öz hakimiyyətini qorumaq barədə düşünür. Vəziyyət isə ağırdır".

**Politoloq qeyd etdi ki, Ermənistanın yeni baş naziri də iqtisadiyyatda nə isə edə bilmir, həmçinin islahat vədləri nəticə vermir:** "Ona görə də belə vəziyyətdə diqqəti yayındırmağın ən asan yolu cəbhə bölgəsindəki təxribatlardan keçir. Sərkisyan erməni cəmiyyətini Azərbaycanın simasında "ümumi düşmən" ətrafında birləşdirmək istəyir. Ona görə də bizə düşən Sərkisyanın planını pozmaqdır. Yəni işğalçı apreldə olduğu kimi bu dəfə də elə bir zərbə almalıdır ki, itkilərinin sayı Sərkisyana baha başa gəlsin. Növbəti zərbə Sərkisyan hakimiyyətinin süqutunu sürətləndirməlidir. Ümumiyyətlə, hadisələrin gedişatı göstərir ki, Ermənistanı işğalçı siyasətdən imtinaya vadar edəcək yegənə yol onlara cəbhə bölgəsində sarsıdıcı zərbənin vurulmasından keçir".

Qeyd edək ki, İsrailin baş naziri Benyamin Netanyahunun yaxın aylarda Azərbaycana səfəri olacaq. Aprel döyüşlərində İsrail istehsalı olan silahların və pilotsuz döyüş aparatlarının hücumundan təşvişə düşən Ermənistan üçün bu, kifayət qədər bəd xəbərdir. Hesab olunur ki, Ermənistanın "İsgəndər" təhdidlərinin qarşılığında Azərbaycan öz təhlükəsizliyini qorumaq üçün İsraildən yeni müasir silahlar ala bilər.

**Keçmiş dövlət müşaviri, politoloq Qabil Hüseynli modern.az-a deyib ki, Netanyahu Azərbaycana çox uyğun bir zamanda gəlir.** "Çünki bölgədə sülhyaratma prosesi dayandırılıb və vəziyyət gərginləşib. Artıq müharibə məsələsi qapının ağzındadır. Üstəgəl, Azərbaycanla Ermənistan arasında aparılan danışıqlar da nəticə vermir. Netanyahu belə bir zamanda rəsmi səfərə gəlir. Bu, köklü bir səfərdir və mühüm əhəmiyyət kəsb edir", - deyə o bildirib.

**Ekspertin fikrincə, səfər zamanı bir sıra sənədlərin imzalanması gözlənilir:** "İmzalanacaq sənədlər İsraildən yeni nəsil silahların alınması ilə bağlı ola bilər. Eyni zamanda Azərbaycanda İsraillə birgə hərbi sənaye obyektlərinin yaradılmasını özündə ehtiva edən sənəd imzalana bilər. Zənnimcə, Azərbaycanın İsraildə səfirlik açması məsələsi də səfər zamanı müzakirə edilə bilər. Bu isə Azərbaycan-İsrail münasibətlərini yeni mərhələyə qaldırar. Üstəlik, İsrailin təsiri altında olan yəhudi lobbisinin Azərbaycana olan marağı daha da yüksələ bilər".

**Politoloq Arzu Nağıyev isə qəzetimizə bildirdi ki, son vaxtlar ATƏT-in Minsk Qrupu həmsədrlərinin bir az aktivləşməsi bir neçə amillə bağlıdır:** "Birinci məsələ Azərbaycan tərəfinin yüksək muxtariyyətlə bağlı verdiyi açıqlamadır ki, bunu erməni rəhbərliyinin necə qəbul etməsini və fikrinin nə olmasını məhz həmsədrlər araşdırmalı idilər. İkinci amil Fransanın yeni təyin edilən həmsədrin regionla tanışlığı ilə bağlıdır. Üçüncü isə ABŞ-da keçiriləcək prezident seçkiləri ilə bağlı görüntü yaratmağın vacibliyi ilə bağlı idi. Çox təəssüf ki, tərəflərlə görüşlər keçirən həmsədrlər yenə də həmişə olduğu kimi, bəyanatlarında vaxtın uzadılmasını, yeni görüşlərin keçirilməsini təklif edirlər. Bu isə Azərbaycan tərəfi ümumiyyətlə razı sala bilməz. Çünki bu vaxt uzadılmaları və görüş naminə görüşlərin keçirilməsi regionda həyata keçirilməsi nəzərdə tutulan iqtisadi layihələrin icrasına mane olan ən böyük əngəldir".

**A.Nağıyevə görə, əksinə, ermənilər və onların rəhbərləri üçün isə bu vaxt uzadılması, status-kvonun olduğu kimi qalması bir şansdır:** "Sərkisyan bununla öz hakimiyyətinin ömrünü uzadır, hətta baş nazir olacağı haqqında anonslar verir, müəyyən siyasi gedişlərlə erməniləri çaşdıraraq, saxta antirusiya əhval-ruhiyyəsi yaradır. Belə bir vaxtda təbii ki, münaqişənin həlli ilə bağlı artıq hərbi variant gündəmə gələ bilər. Səbəb kimi də bir daha qeyd edilməlidir ki, BMT və ATƏT-in zəif fəaliyyəti və təsir mexanizminin olmamasıdır. Düşünürəm ki, BMT nizamnaməsinin müvafiq maddələrinə əsasən Azərbaycan tərəfi öz ərazilərində antiterror əməliyyatları keçirmək hüququna malikdir. Təbii ki, hazırda yaranmış vəziyyətdə bu hətta regional böyük hərbi qarşıdurmaya da səbəb ola bilər. Məhz buna görə də beynəlxalq qurumlar artıq erməniləri ram etmək üçün konkret mexanizm yaratmalıdır".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 242 (6563) 1 noyabr 2016

# “Yaxın xaric” ölkələri növbəti sınaqla üz-üzə

**Ötən bazar Gürcüstanda parlament seçkilərinin ikinci turu, Moldovada isə prezident seçkiləri keçirildi. İlkin nəticələrə görə, qonşu ölkədə seçkilərin ikinci turunda da hakim “Gürcü arzusu” koalisiyası böyük üstünlüklə qalib gəlib. Beləliklə, yeni parlamentdə indiki iqtidar partiyası hətta konstitusion üstünlüyü təmin edib.**




# Putinin “B planı” - Kreml bir neçə ölkədə inqilab hazırlayır

## Təhdidlərdən Bakıya da mesaj payı düşür; ipə-sapa yatmayan həmsərhəd dövlətlərə yeni təhlükə; Rusiya hakimiyyətinin yuxarı eşelonundakı son kadr dəyişikliyinin daha bir pərdəarxası...

Bu cür nəticə seçkiləri diqqətlə izləyən Rusiya üçün “iki pisdən daha yaxşısı” prinsipi üzrə sərfəli hesab oluna bilər. Çünki qalib gələn qüvvənin lideri sabiq baş nazir, gizli rusiyapərəst sayılan milyarder Bidzina İvanişvilidir. Bu o deməkdir ki, Gürcüstanın 1-ci şəxsi hesab olunan baş nazir postu daha 4 il gizli ruspərəstlərdə qalacaq.

Moldovadakı prezident seçkilərində isə açıq rusiyapərəst mövqeyi ilə tanınan, moldavan sosialistlərinin lideri İqor Dodon ilkin nəticələrə görə, hamıdan çox - 50 faizdən artıq səs toplayaraq irəlidədir. Maraqlıdır ki, seçkilərdə indiyədək görünməmiş sayda seçici - elektoratın 2/3-ci iştirak edib. Bu da son seçkilərin önəmini ortaya qoyur.

***

Qeyd edək ki, Gürcüstan, Moldova və Ukrayna Avropa Birliyi ilə assosiasiya sazişi imzalamaqla Rusiyanı ciddi şəkildə qıcıqlandırmış üç postsovet ölkəsidir. Onların üçü də, ələlxüsus Gürcüstan, üstəlik, NATO-ya inteqrasiya kursu götürüb ki, bu da şimal qonşumuzun narahatlığını artırır. Amma belə görünür ki, nə Bidzina İvanişvilinin komandası, nə də İqor Dodon Moldova prezidenti təsdiqlənərsə, onun komandası Moskvanı güclü şəkildə qıcıqlandıracaq radikal addımlar atmayacaq. Ukraynanın durumu da ki - bəlli.

Moskva isə belə görünür ipə-sapa yatmayan postsovet, hətta Şərqi Avropa rejimlərinə qarşı ənənəvi siyasətini yumşaltmağa hazırlaşmır. Bəzi iddialara görə, Rusiya, üstəlik, imkan düşdükcə həmin ölkələrin daxili işlərinə kobud müdaxilə etməyi, hakimiyyətləri dəyişməyi də hədəf götürüb. Sözsüz ki, bu yöndə “5-ci kolon”çuların xidmətindən gen-bol istifadə olunacaq.

Bu ehtimalı artıran əsas səbəb ABŞ-la Rusiya arasında Ukrayna böhranından sonra kəskinləşən münasibətlər, faktiki, “soyuq savaş”ın başlanması və böyüməkdə olması, ideologiyaların sərtləşən rəqabətidir. Getdikcə daha da dərinləşən Suriya böhranı göstərir ki, yaxın zamanlarda iki supergüc arasında konsensus yox, daha çox rəqabət aktual olacaq ki, bu da özünü öncəliklə Rusiyanın öz həyati maraqlar zonası elan elədiyi bölgələrdə - “Yaxın xaric”də (Güney Qafqaz, Baltikyanı bölgə, Orta Asiya, Ukrayna və Moldova) göstərəcək.

***

“Rusiya Şərqi Avropada narıncı inqilablar hazırlayır”. Bu sözləri öz facebook səhifəsində rusiyalı sosioloq İqor Eydman paylaşıb. Onun sözlərinə görə, Monteneqrodakı çevriliş cəhdinin arxasında Rusiya xüsusi xidmət orqanları dayanıb və Kremlin anti-Amerika paranoyası onları dost olmayan ölkələrdə daxili konfliktlər yaratmağa məcbur edir.

“Hər şey Ukraynanın cənub-şərqindəki toqquşmalardan, Krımın və Donbasın işğalından başladı. Bir müddət öncə isə Rusiya xüsusi xidmət orqanları Monteneqroda daxili konflikt yaradaraq, çevrilişə cəhd etmək istədilər. Məncə, eyni fəaliyyəti onlar Latviya, Estoniya, Moldova, hətta bəlkə də Belarus, Qazaxıstan, Bolqarıstan, Litva və digərlərində də aparırlar” - ekspert qeyd edib.

Beləcə, Rusiyanın öz içindən Kremlin postsovet ölkələrinə qarşı yeni qorxulu planlarının, faktiki, anonsu verilib. Buna haradasa Purinin “B planı” da demək olar. Yəni Gürcüstan və Ukraynaya qarşı tətbiq edilən kobud hərbi müdaxilə və hərbi təhdid variantı (“A planı”) ilə paralel, Moskva “B planı”nı da işə salmış kimi görünür.

Söhbət ölkələri daxildən qarışdırıb Kremlə əl verən rejimləri (şəxsləri) iş başına gətirmək və ya onları iş basında saxlanmaq ssenarilərini icraya yönəltməkdən gedir. Rusiya prezidenti Vladimir Putinin hakimiyyətin ən yuxarı eşelonunda etdiyi son kadr dəyişikliyi, o sırada xarici kəşfiyyat xidmətinə peşəkar çekisti gətirməsi bu yöndə qənaəti gücləndirir.

***

Buradaca onu da yada salaq ki, bir müddət öncə Rusiyanın “öz maraqlarını qorumaq” adı ilə dünyanın istənilən bölgəsinə müdaxilə edəcək çevik silahlı qüvvələr yaratmaq planına malik olduğu bəlli olmuşdu. Bir sözlə, qarşıdakı illər ilk növbədə Rusiya ilə geosiyasi qonşuluqda yerləşən ölkələri, “ipə-sapa yatmayan” ölkələri yeni sınaq və təhdidlər gözləyir. Çünki Rusiyanın yeni imperiya maraqları növbəti qorxulu mərhələsinə girib - Kremlin “B planı” da işə düşüb.

Təbii ki, yeni təhdidlərdən Bakıya da mesaj payı düşür. İlk öncə o səbəbə ki, Azərbaycan hələ də Rusiya və Qərb (ABŞ) arasında strateji seçimini etməyib. Hərgah, Azərbaycanın indiki hakimiyyəti ilə rəsmi Moskva arasında yetərincə isti münasibətlər mövcuddur. Hər halda, “şər” deməsən, “xeyir” gəlməz. Azərbaycan isə nə yazıq ki, əsrlərdir “Şər imperiyası” ilə qonşudur. Üstəlik, bizim erməni kimi mənfur qonşumuz və Qarabağ dərdimiz var.

❑ **Analitik xidmət**

# Amerikanın demokratik və qəliz seçki sistemi

## “Demokratiya beşiyi”ndə niyə prezidenti xalq deyil, xalqın seçdiyi nümayəndələr seçir?

**Dünyanın ən güclü dövləti ABŞ-da prezident seçkilərinə 10 gündən də az vaxt qalıb. Amerikalılar növbəti 4 ildə ABŞ və bütövlükdə planetimizdə baş verəcək ən mühüm qərarların qəbuluna birbaşa təsir imkanı olacaq birinci şəxsi seçəcəklər. Bu səbəbdən də Amerika seçkiləri kampaniyanın ilk günündən dünyanın diqqətindədir.**

Amerikada prezident uzun illərdir davam edən dəyişməz qaydaya əsasən Respublikaçı və Demokrat partiyaları arasında rəqabət nəticəsində müəyyən olunur. Noyabrın 8-də keçiriləcək seçimlərdə Demokratlar Partiyasından namizəd senator, keçmiş dövlət katibi Hillari Klinton, Respublikaçılar Partiyasından isə daşınmaz əmlak sahibkarı, milyarder Donald Trampdır.

Dünyanın ən güclü ölkəsi, “demokratiya beşiyi” adlandırılan ABŞ-da prezident seçkiləri bir qayda olaraq qaynar debatlar, seçki mitinqləri, görüşlərlə zəngin olur. Budəfəki seçkilər də fərqlənmir, hətta bəzi fikirlərə görə, daha dinamik olması ilə seçilir. Maraqlıdır ki, ilk dəfə son illərdə Amerikada seçkilərdə saxtakarlıq iddiaları ortaya atılıb. D.Tramp bəyan edib ki, əksər seçki məntəqələrində seçkilər saxtalaşdırılır. Prezidentliyə namizəd deyib ki, əksər məntəqələrdə seçki saxtalaşdırılır, qərəzli media seçki qanunlarını pozaraq H.Klintonu dəstəkləyir.

Amerikada seçkilərin saxtalaşdırılması iddiası dünyada ciddi rezonans doğurub. Bu ölkədə seçkilərin saxtalaşdırılması iddiasını çoxları qəbul etməsə də, prezidentliyə namizədin bu ittihamı geniş əks-səda doğurub. Doğrudanmı ABŞ-da seçkilərin saxtalaşdırılması mümkündür?




Ondan başlayaq ki, Amerikada seçki sistemi Azərbaycan kimi ölkələrdən ciddi şəkildə fərqlənir. Dünyanın əksər ölkələrində geniş yayılmış seçki sistemi namizədlərin birbaşa seçicilər tərəfindən seçilməsidir. Ancaq ABŞ kimi bir neçə ölkədə seçki sistemi xeyli fərqlənir. ABŞ-da prezidenti xalq birbaşa seçmir. Amerika seçki qanunlarına əsasən, xalq arasında keçirilən birbaşa səsvermədə seçilmiş nümayəndələr seçir.

Bu qaydaya əsasən, ABŞ vətəndaşları əvvəlcə hər ştatda əhali sayına görə Konqresin Nümayəndələr Palatasının üzvü, yəni konqresmen sayına bərabər nümayəndə seçir. ABŞ qanunlarına əsasən, Konqresin yuxarı palatasında hər ştatı iki senator təmsil edir. Ancaq aşağı - Nümayəndələr Palatasında isə hər ştatda əhali sayına görə təmsilçilər seçilir.

Beləliklə, seçki gününə qədər ştatlar Konqres üzvü sayı qədər nümayəndə seçir. Ən çox nümayəndə seçən ştat ABŞ-ın ən çox əhali yaşayan Kaliforniya ştatıdır. Kaliforniyadan 55 nümayəndə seçilir. Ötən seçkilərdə ABŞ-da bütövlükdə 538 nəfər nümayəndə seçilmişdi.

ABŞ Konqresinin Nümayəndələr Palatasının 435 yeri və Senatın 100 üzvü var. Seçilmiş nümayəndələr sonradan, yəni seçki günü - noyabrın 8-də Klinton və Tramp arasında seçim edəcəklər. Ancaq nümayəndələrin sayından, yəni hansı namizədə yaxın şəxslərin seçilməsindən ilkin olaraq seçkilərin nəticələri bəlli olur. Yəni məsələn, ştatlarda nümayəndə seçimi zamanı Trampı dəstəkləyən şəxslər nümayəndə olaraq xalq tərəfindən seçilirsə, bu, artıq Trampın qələbəsinə işarədir və ya əksinə, Hillari Klintonu dəstəkləyən şəxslərin daha çox nümayəndə olaraq seçilməsi onun prezident seçilməsi anlamına gəlir. Çünki hər ştatda xalq faktiki olaraq Klintonu və ya Trampı deyil, ümumi seçkilərdə bu namizədlərin nümayəndələrini seçir.

Amerika qanunlarına görə, seçkilərdə qalib gəlməsi üçün namizədlərdən biri seçilmiş nümayəndələrin yarısından çoxunun *(538 nümayəndənin 270-nin)* səsini almalıdır. Əgər bu olmasa, yəni namizədlərdən biri 50+1 nümayəndə səsini qazana bilməsə, o zaman yeni prezidenti Konqres seçir.

Beləliklə, Amerikada prezident seçkilərinin taleyini faktiki olaraq seçilmiş nümayəndələr və ya başqa adla Seçici Kollegiyası müəyyən edir. Amerikada bu mürəkkəb seçki sistemi sayəsində digər partiyaların siyasi proseslərə daxil olması mümkün olmur. Ölkədə seçki yarışı iki partiya - Respublikaçılar və Demokratlar arasında gedir. Bu mövcud sistem digər siyasi partiyaların faktiki olaraq seçki prosesinə daxil olub, uğur qazanmasına mane olur.

Bu səbəbdən də zaman-zaman Amerika seçki sistemini tənqid edənlər olur. Ancaq ölkənin böyük olması, üstəlik, təmsilçilərin seçimi Amerikada seçkilərin obyektiv olmasının təminatıdır. Təbii ki, Amerikada azad və ədalətli seçkinin əsas təminatçısı mükəmməl məhkəmə sistemidir. Digər tərəfdən, bir neçə seçim prosesindən *(əvvəlcə partiyalardaxili “praymeriz”, daha sonra nümayəndə seçkiləri və nəhayət, prezident seçkisi - K.R.)* keçən prezident seçkiləri zamanı qanun pozuntularının və mübahisələrin məhkəməyə çıxarılması mümkündür.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 242 (6563) 1 noyabr 2016

**"Amerikada qadın prezidentin öz səlahiyyətlərinin icrasında çətinlik yaşayacağı, dövlətin siyasətində zəiflik yaradacağı və bu baxımdan riskli olduğu haqda fikirlərə qatılmıram".**



# "Hillari Klinton bölgəmizi tanıyır və Azərbaycanın buradakı önəmini yaxşı bilir"

## Şahin Cəfərli: "O, ABŞ-ın milli maraqlarını üstün tutacaq, erməni məsələsinə görə Türkiyə və Azərbaycanla münasibətlərin pozulmasına yol verməyəcək"

**Politoloq Şahin Cəfərli** "Yeni Müsavat"a ABŞ prezidentliyinə iddialı xanım namizəd Hillari Klintonla bağlı səslənən fikirləri şərh edərkən bunları söylədi. Ekspert dünyanın supergücünün sükanının xanıma verilməsini təhlükəli sayanların yanaşmasını da qəbul etmir: "Əvvəla, bu, gender bərabərliyi anlayışına ziddir. Qərb qadın-kişi bərabərliyi məsələsində stereotipləri çoxdan aşıb. Elə Şərq ölkələrinin tarixinə də nəzər saldıqda, istər uzaq, istərsə də yaxın keçmişdə kifayət qədər güclü qadın lider görmək mümkündür. Konkret Hillari Klintona gəldikdə isə o, lider və dövlət xadimi kimi özünü çoxdan təsdiq edib. Hüquq doktoru olan Hillari Klinton 12 il Arkanzas ştatının birinci xanımı və 8 il ABŞ-ın birinci xanımı qismində qubernator və prezident Bill Klintonun fəaliyyətini çox yaxından izləyib, ona kömək edib, sosial işlərdə və layihələrdə fəallıq göstərib. O, 8 il Nyu-York ştatından senator olub və 4 il dövlət katibi kimi yüksək vəzifədə çalışıb".

**Ş.Cəfərli şübhə etmir ki, bütün bunlar xanım Klintona çox zəngin idarəçilik təcrübəsi qazandırıb:** "Təbii ki, prezidentlik müddətində onun hansı hadisələr və sürprizlərlə qarşılaşacağını öncədən bilmək mümkün deyil, amma Hillari Klintonun dövləti idarə etməyə hazır olduğu şübhə doğurmur. Digər tərəfdən, ABŞ-da idarəçilik çoxdan institutlaşıb, dəqiq hakimiyyət bölgüsü mövcuddur və dövlət aparatı fasiləsiz çalışan mexanizm kimi fəaliyyətini davam etdirir. Prezidentin şəxsi keyfiyyətləri əhəmiyyətlidir, amma dövlətin fəaliyyəti tamamilə birinci şəxsdən asılı deyil".

**Siyasi şərhçinin sözlərinə görə, Hillari Klintonun hakimiyyəti dövründə ABŞ-ın xarici siyasətində kardinal dəyişiklik gözlənilmir:** "Son 8 ildə Ağ Evdə onun partiyadaşı oturub və onlar 4 il birlikdə çalışıblar. İndiki siyasət ümumi xətləri ilə davam edəcək, lakin əlbəttə ki, hər prezidentin öz dəst-xətti olur və bu baxımdan yeniliklər mütləq özünü göstərəcək. Xanım Klinton Obamanın həll edə bilmədiyi və ya həllinə vaxt çatdırmadığı bir çox xarici siyasət problemi ilə bağlı kritik qərarlar verməli olacaq. Bu sıraya ən əvvəl Suriya münaqişəsini və qlobal terrorizmlə mübarizəni, daha sonra Ukrayna məsələsini, Şimali Koreyadan qaynaqlanan nüvə təhdidini, Cənubi Çin dənizi ilə bağlı problemi, Avropa Birliyi ilə imzalanması nəzərdə tutulan transatlantik ticarət və investisiya müqaviləsini aid etmək olar. Bu mövzularda Klintonun Obamadan daha qətiyyətli olacağını düşünürəm, çünki Nobel sülh mükafatı sahibi olan Obama xüsusən münaqişəli məsələlərlə bağlı qəti qərarlar verməkdən çəkinməsi ilə yadda qalıb. Düzdür, Klinton da ABŞ ordusunun Yaxın Şərqdə hərbi əməliyyatlara cəlb olunmasına və ABŞ-ın dünya jandarmı funksiyasına öz üzərinə götürməsinə qarşıdır, lakin onun Obama ilə müqayisədə daha az tərəddüd göstərəcəyinə inanıram. Təbii ki, prezidentin milli təhlükəsizlik üzrə müşavirlərinin, eləcə də yeni dövlət katibi və yeni Pentaqon rəhbərinin rəyi də bu məsələlərdə mühüm rol oynayacaq".



**Erməni lobbisinə yaxın olduğu iddia edilən xanım namizədin Azərbaycanla perspektiv münasibətlərə gəldikdə, Ş.Cəfərli xatırlatdı ki, H.Klinton dövlət katibi olduğu dövrdə Cənubi Qafqazı ziyarət edib, o cümlədən Azərbaycana da gəlib:** "O, bölgəmizi tanıyır və Azərbaycanın buradakı önəmini yaxşı bilir. Mən ABŞ-ın bizim regionda yeritdiyi siyasətdə radikal dəyişiklik gözləməsəm də, Rusiya-ABŞ qarşıdurmasının şiddətlənəcəyi təqdirdə, "cəbhə" xətlərindən birinin Cənubi Qafqazdan keçə biləcəyini də istisna etmirəm. Vaşinqton Gürcüstana önəm verməyə davam edəcək. Hillari Klintonun ABŞ-dakı erməni diasporu ilə yaxınlığını da qeyd etmək lazımdır. O, senator olduğu dövrdə uydurma "erməni soyqırımı" layihələrinə dəstək verib, lakin hakimiyyətdə təmsil olunanda bunu "unudub" və dövlət maraqlarını üstün tutub. Bu səbəbdən H.Klintonun prezident kimi erməni məsələsinə yanaşmasının necə olacağını proqnozlaşdırmaq çətin deyil. O, yenə bu məsələdə ABŞ-ın milli maraqlarını üstün tutacaq, erməni məsələsinə görə istər Türkiyə, istərsə də Azərbaycanla münasibətlərin pozulmasına yol verməyəcək".

❑ **Cavid TURAN**

# NATO Rusiya ilə olası savaşa hazırlaşır - "Stoltenberq xətti" qurulur

## Alyansı Rusiyadan 17 ölkə və bir kəşfiyyatçı qoruyacaq

**NATO öz şərq qanadını möhkəmləndirməkdə və Rusiyanın mümkün aqressiyasından qorunmaq üçün infrastruktur yaratmaqda davam edir. Bu barədə "Kommersant" qəzetinin yazısında qeyd edilir.**

Qəzetin yazdığına görə, Şimali Atlantika Müqavilə Təşkilatının müdafiə nazirlərinin son toplantısında Baltika və Polşada yerləşəcək batalyonların milli tərkibi artıq müəyyən edilib.

NATO baş katibi toplantıdan sonra keçirilən mətbuat konfransında Latviya, Litva, Estoniya və Polşada yerləşdirəcək 4 beynəlmiləl batalyonun tərkibini və gəlmə vaxtını açıqlayıb.

Bu batalyonlara ABŞ, Almaniya, Kanada və Böyük Britaniyadan olan hərbi mütəxəssislər başçılıq edəcək.

Hərbi hissələrə 17 ölkədən hərbçilər qoşulacaq. Kanada batalyonuna Albaniya, İtaliya, Polşa və Sloveniya hərbçiləri daxil olacaq. ABŞ batalyonunda rumın və amerikan hərbçiləri fəaliyyət göstərəcək.

Britaniyalının komandanlığı altında isə Danimarka və Fransa hərbçiləri hərəkət edəcək. Nəhayət, alman komandan Belçika, Xorvatiya, Fransa, Lüksemburq, Niderland və Norveç hərbçilərinə rəhbərlik edəcək.

Bundan başqa, Rumıniyada ABŞ və Rumıniya generallarının rəhbərlik edəcəyi əlahiddə briqada formalaşdırılacaq.

"Biz Rusiya ilə yeni soyuq müharibəni axtarmırıq. Bizim addımlarımız düzgün hesablanmış və proporsionaldır və biz gərginliyin minimum səviyyəsinə endirilməsinin tərəfdarıyıq", - deyə Stoltenberq jurnalistlərə bildirib.

Bütün bunlarla yanaşı, NATO şəxsi heyətin hazırlığı üzrə təlimləri də gücləndirir. Keçən həftə ABŞ komandanlığına tabe olan 100 hərbçi "Patriot" tipli raket əleyhinə müdafiə sistemlərinin dəmir yolu ilə Almaniyadan Rumıniyaya çatdırılması ilə bağlı əmri yerinə yetiriblər. **NATO-nun Avropadakı qoşunlarının komandanı general Kertis Skaparotti** Rusiyanın daima öz qərb sərhədlərində genişmiqyaslı təlimlər keçirdiyini, oktyabrın 7-də Kalininqradda "İsgəndər" raketlərini yerləşdirdiyini xatırladıb.

NATO-nun şərq sərhədlərinə isə baş katibin kəşfiyyat üzrə xüsusi köməkçisi nəzarət edəcək. Bu vəzifə oktyabrın 22-də təsis edilib və ilk olaraq alman Arndt Fraytaq fon Lorinqofen həvalə olunub. Bu şəxs bu yaxınlara qədər Almaniyanın Çexiyadakı səfiri, daha öncə isə Almaniyanın kəşfiyyat orqanı BND-də direktor müavini vəzifəsində və AFR-in Moskvadakı səfirliyində siyasi şöbənin rəhbəri vəzifələrində çalışıb.

NATO-nun baş katibinin sözlərinə görə, fon Lorinqofenin vəzifəsi "baş verənləri daha yaxşı anlamaq üçün" NATO-ya daxil olan bütün ölkələrin hərbi və mülki kəşfiyyatlarının potensiallarının inteqrasiyasını təmin etməkdən ibarət olacaq.



Baş katibin qarşısında qoyulan vəzifələr Avropada terrorist aktlarının qarşısının alınması, alyansın cənubunda transsərhəd kəşfiyyat üzrə işlərin sistemləşdirilməsi və Rusiya ilə sərhəddə situasiyaya nəzarət edilməsidir.

**"Bütün bunlar olduqca ciddi addımlardır" deyə NATO qərargahında çalışan vəzifəlilərdən biri gazeta.ru-ya açıqlamasında bildirib:** "Bu batalyonlar daha böyük qüvvələrin əsasını təşkil edəcək. Həm Şərqi Avropa, həm də Baltikyanı ərazilərdə başqa ordular tərəfindən istifadə olunacaq infrastruktur yaradılır. Qara dənizdə də bənzər qüvvələr formalaşdırılacaq. Yəni bu konkret Rusiyaya qarşı güc nümayişidir", deyə o qeyd edib.

**Onun sözlərinə görə, bütün bunlar Rusiyanın addımlarına qarşı məcburi reaksiyadır:** "Əvvəllər Moskvada bəyan edirdilər ki, NATO tez bir zamanda hərbi cavab həyata keçirmək qabiliyyətində deyil. İndi onlar bunun belə olmadığına əmin olmalıdırlar", deyə o müsahibədə qeyd edib.

**NATO baş katibi Yens Stoltenberq "Alyansın münaqişəni qızışdırmaq niyyətində olmadığını, əksinə, bunun qarşısını almaq istədiyini" dəfələrlə bəyan edib:** "Alyans həmişə Rusiya ilə dialoq qapıları açıq olduğunu bildirib, Moskvaya sadəcə qapını döymək qalır".

**Qapı taqqıltısı isə hələ ki eşidilmir. Rusiyanın NATO-dakı daimi nümayəndəsi Aleksandr Qruşkonun sözlərinə görə, bütün bunlar real təhdidlərə qarşı yönəlməyib və olduqca təhlükəlidir.**

"Alyans anlamalıdır ki, onlar tərəfindən həyata keçirilən tədbirlər bizim tərəfimizdən cavabsız qalmayacaq", deyə o jurnalistlərə bildirib.

❑ **Vaqif HÜSEYN**

YENİ MÜSAVAT
N 242 (6563) 1 noyabr 2016

**Mirzə Fətəli Axundov özünün məşhur "Hekayəti Müsyö Jordan Həkimi-Nəbatat və Dərviş Məstəli Şah Cadükuni Məşhur" komediyasında sübut etmək istəyir ki, tektonik, yəni zəlzələ yaradan silah, bəs guya fırıldaqçı dərvişlərin növbəti yağlı yalanlarından biridir, vəssalam. Guya uydurmadır. Gopdur. O, xalqı bu cür şirin Şərq nağıllarına inanmamağa çağırırdı.**





# Tektonik silahın azərbaycanlı müəllifi barədə şok məlumatlar - İkram Kərimov kimdir?

## "Elmi tədqiqatların nəticələrini Moskva alimləri oğurlayıb yapon mütəxəssisə verdi, sonra bu, amerikalıların əlinə keçdi"

Zaman keçdi, dövran dolandı... Günlərin birində yaşadığımız həyat özü bu iddianın, komediyanın tam tərs cavabını, tərs silləsini çırpdı key sifətimizə. Bəlli oldu ki, bəs azərbaycanlılar bircə kütləvi qırğın silahı icad ediblər bütün tarixləri boyu, o da məhz zəlzələ doğuran tektonik silahdır, vəssalam!!!

Müasir Dərviş Məstəli Şah isə gözünüzə su verib yaxşı-yaxşı baxın, bugünkü həmsöhbətim, azərbaycanlı alim İkram Kərimovdur - Milli Elmlər Akademiyası Seysmologiya Elmlər Mərkəzinin direktoru, nəhayət...

Nəhayət, tektonik silahın dünyadakı ilk ixtiraçısı!!! Müəllifi!!!

***

İkram Kərimovun adı bu günə qədər Rusiya arxivləri, mətbuatı tərəfindən gizli saxlanılır. Barəsində, kiçik istisnalarla, məlumat əldə etmək olduqca çətindir. Haqqındakı xəsis informasiya adətən aşağıdakı qısa cümlələrlə kifayətlənir: 1968-ci ildə SSRİ Müdafiə Nazirliyi "Merkuri-18" məxfi proqramı çərçivəsində (kod: NİR № 2M 08614 PM) gizli əməliyyata başlayır. Hədəf tam məxfidir - zəlzələ törədən kütləvi qırğın silahını yaradıb Amerikanın kürkünə birə salmaq. Tədqiqatlar, təcrübələr Qırğızıstanın Batken şəhərindən 50 kilometr aralıda yerləşən poliqonda başlayıb, tezliklə öz müsbət nəticəsini verir. Dünyanın ilk tektonik silahı ixtira edilib sovet hərbi sənayesinin ixtiyarına verilir. Sonralar "Soverşenno sekretno" qəzeti, detektiv filmi xatırladan bu mövzunu belə təsvir edirdi:

"70-ci illərin sonlarında azərbaycanlı alim İkram Kərimovun elmi tədqiqat qrupu zəlzələlərdən öncə yüksək tezliklərdə baş verən anormal dəyişikliklərə diqqət yetirir. Əvvəllər bu cür zəlzələ xəbərdarlıqlarını yalnız xüsusi rəqəmsal aparatların köməyi ilə müəyyən etmək olurdu. Amma Kərimovun tədqiqat qrupu, yeni elmi metodla, adıçəkilən cihazlara ehtiyac olmadan, zəlzələ əlamətlərini hələ nüvəsində ikən müəyyən etməyi bacarır".

***

İkram Kərimovun coğrafi koordinatlarını dincəldiyi füsunkar Zaqatala-Şəki meşələrində aşkarlayınca, day sizdən nə gizlin, qalan bütün digər işlərimi saxladım sonraya. Bakı avtovağzalında adambaşı hər sərnişinindən on manat qoparan dələduz sürücülərə qoşularaq cumdum qalın Zaqatala meşələrinin dərinliklərinə.

Zaqatala-Şəki bölgəsinin adətlərinə bələdəm, bilirəm ki, buraların öz adəti, öz fərqli zaman ölçüləri var. Bilirəm ki, buraların dəqiq sərhədi, qədim hüdudları, əslində, Qəbələnin qədim, ecazkar Nic kəndindən başlayır. Sərhədi adlayıb o tərəfə keçmək istəyirsənsə, gərək ürəyində bir qədim ovsunu hökmən təkrarlayasan. Nic kəndinin adını əvvəlcə astaca pıçıldayıb, lap axırda yan-yörənə diqqətlə, oğrun-oğrun baxasan. Axırda bu kəlmənin tərs oxunuşunu daha yüksək səslə ətrafında dalğalandırasan:

**- CCCİİİİİİNNNNNN!!! CİNNNNNNN...**

Görəcəksən, anında sənə qarşı münasibət göz görə-görə necə dəyişir... Necə sular tərsinə axır burda... Necə antiqravitasiya qanunları işə düşüb, səni öz lal axarında tam yad, naməlum bir ünvana doğru sürükləyir... Necə külək tərsinə tumar çəkir bu vaxt qədim ağacların başına... Addımların necə tərs istiqamətə dartır səni... Necə şəlalənin suyu qəfil geriyə axmağa başlayır... Necə bütün kəlmələr tərsinə səslənməyə başlayır qulağında...

Necə...

Necə bütün söhbətlər burda özünə tam tərs məna qazanır. İkram Kərimovun sirləri necə tədricən, öz-özünə açılır səninçün. Necə o, bu silahıyla dünyanın dörd tərəfində özünə yeni qurbanlar, yeni hədəflər axtarır.

Necə o, Ələddinin cini kimi, "Cinnnn!" hayını eşidincə xəlvətdən çıxıb hüzurunda peyda olur. Kafelərin birində görüş təyin edir sənə.

***

Divarına qəhvəyi döşəmə boyasıyla, qalın əhəng fırçasıyla "Kafe" yazılmış ünvanda, qıraqdan baxsan həəə, deyərdin guya sakitçilikdi. İçəridə isə mənzərə tamamilə fərqlidi. Siyasi gündəmin növbəti müzakirəsi, deyəsən, elə indicə, lap təzəcə başlayıb, tədricən öz əhatə dairəsini genişləndirirdi. Müzakirə iştirakçıları məni görüncə bərk sevindilər. Barəmdə xam xəyallara qapanıb elə bildilər ki, bu cür qəliz mövzuları ancaq mən guya xətm etməyi bacarıram.

**Uzaq küncdəki tənha, sakit müştərinin İkram müəllim olduğunu anında dərk edib addımlarımın sürətini xeyli artırdım. Siyasi müzakirələrə qoşulmadığımı görən iştirakçılar buna xeyli məyus olub kökslərini ötürdülər.**

**Məni salamlayan İkram müəllim bir müddət əlimi isti ovcundan kənara buraxmadı. Müştərilərə tərs-tərs baxaraq davam etdi:**

- Qəribədir, çayxana masası arxasında bizimkilər həmişə elə bil bir müvəqqəti hökumət qurarlar. Biri, misal üçün, siz kimisi, mütləq xarici işlər naziri olacaq, digəri müdafiə naziri... Bir başqası səhiyyə sahəsini özəlləşdirəcək elə bil...

*- Bəs siz kim olardız adətən belə məclislərdə. Hə?*

- divardakı tənha asqıya əynimdəki gödəkçəmi tapşırıb, azadlığa çıxmış bütün vücudumla fizika-riyaziyyat professoruna tərəf əyildim. Lal, hərəkətsiz duruşum bir neçə saniyə çəkdi.

- Mənmi?.. Mən dərviş olmaq istərdim... Uşaqlıqda "Azdrama"da Axundovun Parisi dağıdan dərviş barədəki komediyasına baxarkən, bilmirəm niyə, vallah, o möcüzəyə inandım...

*- Axırıncı dəfə nə vaxt baxmısız bu tamaşaya?*

- sualım xatirələrə dalmış professoru diksindirib müasirliyə qaytardı.

*- Nə vaxt Bakıya gəlsəm, teatr afişalarında bu komediyanın adını axtararam.*

- Yaxşı, bayaqkı sualınızdan elə bil özünüz də qorxduz. Deyin, harda ilk dəfə aşkarladınız yeraltı tektonik qatları?

İkram müəllimin cazibədar sifəti bir nöqtədə donub qaldı xeyli. Sifətinin sonradan dirilib canlanması xeyli vaxt apardı.

***

- Tədqiqatlarımda ilk müsbət nəticələrə 1979-cu ilin mayında gəldim. 1987-ci il noyabr ayının 30-da isə Sov. İKP MK və SSRİ Nazirlər Kabineti 1384-345 saylı qətnamə qəbul edərək, geofiziki silahın yaradılması barədə alimlər qarşısında yeni vəzifələr qoydu. O vaxtdan bu günə kimi səmalarda bəxt ulduzum parlayıb yanır.

Həmin ulduzun parıltısı indi də İkram Hacı oğlunun gözlərində parıldayıb sönməyə tələsmir.

**- Hazırda adınız dünyanın 10 qızıl aliminin adı arasındadır. Kəşfləriniz bütün dünya alimlərini heyrətləndirməkdə davam edir. Heyf ətrafınızda qapalı informasiya mühiti var. Camaatımız sizi hələ də tanımır.**

İkram müəllimin üzündə bu vaxt ötəri həyəcan hissi görünüb tez də silinir. Fizika-riyaziyyat doktoru başına gələnləri bir-bir sadalayıb diqqətimə çatdırır.

- Kuratorumuz, SSRİ Müdafiə Nazirliyinin general-mayoru V.Boçarovun əmrinə əsasən, biz




pəncərəsi küçəyə baxan otaqlarda tədqiqat apara bilməzdik. Guya casusların dinləmə böcəkləri pəncərələrdən maneəsiz ötüb söhbətlərimizi yaza bilərmiş. Amma təhlükə tam fərqli ünvandan gəlib bizi yaman yerdə haqladı, bildiz.

*- Hardan gəldi bu təhlükə?*

- o vaxtların qorxunc havasına indi mən də düşürəm. Keçirəm pıçıltıya.

İkram müəllim əlindəki kabab tikəsini ağzına atmağa tələsmir.

- Tezliklə Moskva alimləri ilə bizim aramızda dərin uçurum yarandı. Niyə yarandı? Bilmirəm. 80-ci illərin əvvəli idi, xatirələrim məni aldatmayırsa. Moskvićlər, icazəsiz, tədqiqatlarımızın tam məxfi sənədlərini götürüb ötürdülər yapon alimi Kadzuo Hamadaya.

- Nəticədə...- cümləmin elə ancaq ilk sözünü pıçıldaya bilirəm. Qalanlarını, - bunu da növbəti möcüzə sayın, - elə İkram müəllim özü pıçıldayır. Qulağı itidir bu alimin. Zəlzələləri elə-belə, boşuna bəribaşdan eşitmək istədadı, burda da öz kiçik nümunəsini göstərir, deyəsən, bizə.

Alimin zəlzələləri bəribaşdan eşitmək istedadına iynə ucu qədər belə daha şübhəm qalmır. İstəsə, o, dodaqlarımdakı bu pıçıltını da, zəlzələ kimi, başqa səmtlərə, ünvanlara göndərə bilər həttа.

- Nəticədə, araşdırmalarımız amerikalıların əlinə gedib düşdü. Amerikanlar da bu araşdırmalar əsasında 90-cı illərdə, Alyaskada HARP seysmik stansiyasını qurub ordan təbii iqlimə müdaxilələrə başladılar. Haitidə, Yaponyada, digər ünvanlarda şübhəli, dağıdıcı zəlzələlərin sayı birə beş artdı. Bunda...

Bu dəfə mən alimi qabaqlayıb mövzunu davam etdirdim.

*- Bunda öz araşdırmalarınızın izini aşkarladınız, eləmi?*

- Haqlısız. HARP stansiyasındakı qurğular elə bizimkilərin bir başqa cür təkrarıdır. Amma bunu deməyin nə xeyri var indi? Nəticələrimizə gör kimlər yiyələndi...

Alim əsəbləşib əlindəki çəngəli süfrəyə çırpır. Səsinə xidmətçi diksinir. Cumur hüzurumuza.

- Nə lazımdı əlavə? Deyin.

- Heç. Sən get. Lazım gəlsə özümüz səslərik səni.

Ətrafımızda kənar şəxslərin olmadığını görüb mövzuya qayıdıram.

*- Harda ilk dəfə aşkarladınız yeraltı tektonik qatları? Tektonik silahımızın ilk örnəyini harda aşkarladınız, həəə?*

İkram müəllim, sualıma cavab olaraq, oturduğu yerdən dik yuxarı atıldı. Lal-dinməzcəsinə xidmətçini səsləyib süfrəmizin haqqını artıqlamasıyla özü ödədi. İcazə vermədi əlimi cibimə tərəf aparım. Sükut buzunu qırmadan məni, eşikdəki qara "Volqa 31"nə dəvət etdi.

***

Şəhərin çıxacağındakı bir ziyarətgaha yaxınlaşdıq. Sürücü mühərriki söndürdü. Səssiz, sanki mələklərin qanadları üstə, yaxınlaşdıq ziyarətgahın alaqapısına.

İkram müəllim taxta darvazanı sakitcə, astaca taqqıldatdı.

Axşamdı. Uzaqlarda tək-tük pəncərələrin gözləri işıldasa da, bura qatı zülmət hakimdi artıq.

Darvazadan necə içəri girdiyimizə özüm də təəccübləndim. Ayaqlarımın altını yaxşı görməsəm də, maneə bilmədən irəli addımlayırdıq.

Kor divar parçasına gəlib dirəndiyimiz vaxt, İkram müəllim sallaq cibindən bahalı dördkünc alışqanını çıxardı. Üstündəki fənərin düyməsini basıb, şüasını bircə kiçik nöqtəyə yönəltdi. Gördüyümün nə olduğunu çox gec anladım.

Aliminium fincandı. Əyri paslı mismara keçirilmişdi.

İkram müəllim sükutu yenə də pozmadan mənə tam yaxınlaşdı. Astaca pıçıldadı...

- Azərbaycanın əsas tektonik yarığı, bax, bu Sarı baba pirinin altından keçir. Zəlzələ dalğalarını, bir-iki gün əvvəlcə bu yüngül alüminium fincan hiss edir. Vaxtaşırı titrəyir...

Fənərin zəif şüası o fincanı diqqət mərkəzində saxlayırdı. Bir-iki dəqiqəmiz belə ötüb getdi. Alnımı tər zərrələri bəzədi.

Bir də gördüm professor çiynimi silkələyir:

- Fikir ver... Fincan tərpəşir vaxtaşırı. Sabah zəlzələ olacaq mütləq... Beş bal civarında təxminən. Gərək şəhərdəkiləri xəbərdar edək. Hələ kafedəykən bu titrəyişləri duymağa başlamışdım.

- Bu səbəbdənmi, bayaqdan hey susursuz, hə? - nəfəsimi fincandan kənara üfürüb, qaranlıqda professoru axtardım.

Əlini çiynimə qoymasaydı, çətin mən onu burda bir də tapaydım.

- Sabah gəl bura... Günorta vaxtı... Niyyət elə... dua oxu... Yağış yağsa, demək, sən doğrudan da qələm sahibisən...

***

Vədələşdiyimiz vaxt - səhəri gün hamıdan, o cümlədən özümdən qorxa-qorxa gəldim təzədən elə həmin Sarı baba ocağına. Ayağım altındakı zəif titrəyişləri duyub elə bildim professorun uşaqlıq vaxtlarını yenidən təkrarlayıram. Alüminium fincan yenə öz yerində vaxtaşırı titrəyirdi...

İkram müəllim uşaqkən, eynən indi mənim kimi, görünür, bu ünvanda çox gəzibmiş...

Alimin dediklərini bir daha xatırlayıb qibləni göstərən alaca hücrəyə yaxınlaşdım. Ordakı bir-iki qəribə daşı tərpətdim... dua oxudum... niyyətimi səslənditdim... Bir də gördüm ki, yağış əvvəlcə narın-narın yağmağa başladı. Sonra yağışın şiddəti artdı. Pencəyimi başıma keçirərək çıxışa doğru qaçmağımın heç bir xeyri olmadı. Tam islanmışdım. Üz-gözümdən, çənəmdən su damcıları süzülürdü...

İstədim təzədən bir də astaca "Nic" kəlməsini pıçıldayıb, sonra onu tərs oxunuşda "Cin!!!" haykırtısına çevirim. Gücüm çatmadı ancaq buna.

***

**Ətrafımdakıları bir an aldadıcı ilğım bildim. Hətta dünən görüşdüyüm İkram müəllimi də.**

❑ **Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 242 (6563) 1 noyabr 2016



# Son həftə və Amerika tapmacasının açması

Hüseynbala SƏLİMOV

**Federal Təhqiqatlar Bürosunun Hillari Klintonla bağlı araşdırmalara yenidən start verməsi Rusiya mətbuatında əsl şadyanalıq yaradıb. Necə deyərlər, zarafat deyil, bu xəbər gündəmə gələndən H.Klintonla D.Tramp arasındakı reytinq fərqi kəskin şəkildə azaldı və indi həmin bu fərq, vur-tut, bir neçə faiz təşkil edir...**

Ona görə də belə hesab edirik ki, bu bir həftə ABŞ siyasətində olduqca gərgin keçəcək. Biz hələ də ümid edirik ki, ən azı sonda dövlətçilik məntiqi qalib gələcək və xanım Hillari prezident seçiləcək. Hərçənd ki, bunun Azərbaycan siyasəti və xüsusən də Qarabağ problemi üçün elə də əhəmiyyətli dönüş yaradacağını güman etmirik. Düzdür, Hillari prezident seçkisi kampaniyasında Rusiya və onun prezidentli ilə bağlı çox kəskin ifadələri ilə yadda qaldı və hətta Rusiya prezidentinə "diktator" da dedi. Amma düşünmürük bu, ABŞ-ın MDB məkanındakı siyasətinə ciddi təsir edəcək. Nə olursa-olsun, ABŞ bütün hallarda Dağlıq Qarabağa görə və hətta Ukraynaya görə də Rusiya ilə vuruşmayacaq...

Üstəlik, H.Klintonun qələbəsinin heç də asan başa gəlməyəcəyinin fərqindəyik. Bəli, Tramp kiçik problem deyildir. Düzdür, bu vaxta qədər Amerika milyarderləri prezident seçkilərində elə də uğur qazana bilməyiblər. Amma Tramp aşkar istisna kimi görünür...

Bəlkə də ABŞ-dakı seçkilərə bunca maraq göstərməyimiz bir qədər təəccüblü görünəcək. Ən azı ona görə ki, bəziləri belə düşünür ki, ABŞ-da kimin seçilməsindən asılı olmayaraq regionda çox etibarlı dayaqlarımız var, xüsusən də Rusiya ilə aramızdan hətta su da keçmir...

Düzdür. Hələ onu demirəm ki, D.Trampın ABŞ-ın seçki sistemi ilə bağlı dedikləri - guya ki, seçkilərdə total saxtakarlığın olmasını, hətta ölmüş insanların belə seçki siyahılarına salınmasını, "karusel" əməliyyatlarının həyata keçirilməsini iddia etməsi Azərbaycanda bəzilərinə sözün əsl mənasında ləzzət verir. Amma güman edirik ki, D.Trampın dedikləri adi populizmdən və seçkiqabağı qarabasmadan başqa şey deyil...

Demirəm ki, ABŞ-da hər şey idealdır. Bu sətirlərin müəllifi də illər öncə ABŞ-da yerli seçkiləri müşahidə etmişdi. O vaxt çox maraqlı bir detal oldu. Bir nəfər iki dəfə səs verməyə cəhd etdi, amma dərhal aşkar edildi və necə deyərlər, neytrallaşdırıldı...

ABŞ ən azı "Uoterqeyt" olayından keçən ölkədir. Burada prezidentə də güzəşt etmirlər. Güman ki, bir qədər yaşlı nəslin R.Niksonun istefa verməyə məcbur olması hələ də yadındadır. Məsələ bundadır ki, ABŞ-da güclü media, məhkəmə və Konqres, ən əsası da güclü siyasi-iqtisadi elitalar var ki, ən azı onların mövcudluğu saxtakarlığa imkan verməz. Hə, demək olardı ki, D.Tramp respublikaçıların da arxasında dayanan iqtisadi elita üçün problemə çevrilibdir, çünki o elita da ABŞ-ın dövlət maraqlarından vaz keçə bilməz. Amma yenə də hər hansı saxtakarlığın ola bilməsini istisna edirik...

Doğrusu, amerikalıların bir hissəsi kimi biz də H.Klintona məcburiyyət üzündən azarkeşlik edirik. Onun hətta mimikaları belə bizə xoş gəlmir və hesab edirik ki, siyasətçi-diplomat xanım jestlərindəki süniliyi gizlətməyi elə də yaxşı bacarmır...

Bir siyasi təhlilçi və yaxud da politoloq kimi mənə hətta Trampın seçilməsi daha maraqlı görünərdi. Bəlkə də on dəfə yazmışam ki, belə bir hal Amerikanın siyasətində institutsionallıqla personallığın sərhədlərini açıb göstərərdi. Həm də bizim ABŞ-la Rusiya arasında soyuqluğu müşahidə etmək imkanlarımız çox olub. Maraqlı olardı ki, görək, bu iki ölkə arasında isti münasibətlər necə olur və nəyə gətirib çıxarır?

Amma bir məsələ bizim bu marağımızı aşkar narahatlığa çevirir. D.Tramp bütün siyasi rejimlərlə dostluq təklif edir. Əgər bu dostluğun, məsələn, Qarabağ problemində müsbət nəticələrə gətirib çıxaracağına əmin olsaydım deyərdim ki, qoy, Tramp seçilsin. Amma qorxuram ki, cənab Tramp bizdən daha çox bizim hakimiyyətimizlə dostlaşsın. Bu isə mənə elə də cəlbedici görünmür, çünki şükür, hakimiyyətimizin dostları onsuz da çoxdur və necə deyərlər, bircə Tramp çatmırdı...

Hərçənd, ABŞ elə indi də bir işə yaramır. Müxalif və müstəqil düşüncəli insanlar artıq bu ölkədən ciddi dəstək görmürlər...

Həm də düşünəndə ki, bizim Volodya Putin Trampın seçilməsi ilə bir az da güclənər, deyirsən ki, əşi, qoy, prezident elə Hillari olsun...

# Qüdrət Həsənquliyevin viza təklifinə dəstək gəldi

**Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədri, deputat Qüdrət Həsənquliyevin Milli Məclisin son iclasında səsləndirdiyi təklif ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Partiya sədri Azərbaycanın Türkiyə və İranla olan viza rejimini aradan qaldırmasını təklif edib.**

## Elxan Şahinoğlu: "Rusiya vətəndaşları vizasız ölkəmizə gələ bilirsə, eyni hüquq Türkiyə və İran vətəndaşlarına da verilməlidir"

**BAXCP sədrinin təklifinə dəstək gəlib. Politoloq Elxan Şahinoğlu deputatın təklifini birmənalı dəstəklədiyini qeyd etdi:** "Dəfələrlə bu barədə fikirlərim olub. Öncəliklə Türkiyə ilə bu məsələni həll etmək lazımdır. Bunu daha neçə il uzatmaq olar? Adını da qoyurlar ki, texniki məsələ həll olunmalıdır. 10 il ərzində eyni sözləri demək, sadəcə, bəhanədir. Türkiyə Azərbaycan vətəndaşlarına viza tətbiq etmir. Azərbaycan da eyni addımı atmalıdır. Doğrudur, indi viza məsələsində xeyli yumşalma var. Bəzi ölkələr üçün belə məsələlərdə istisnalar olmalıdır. Gürcüstan və Rusiya vətəndaşları viza almadan ölkəmizə gələ bilirlərsə, eyni hüquq Türkiyə və İran vətəndaşlarına da verilməlidir. Deyə bilərlər ki, Rusiya və Gürcüstan keçmiş SSRİ ölkələridir. Türkiyə ilə bu məsələnin uzanmasını bəzi rəsmilərimiz qeyri-rəsmi söhbətlərdə İranla əlaqələndirirlər. Guya biz Türkiyə ilə viza rejimini aradan qaldırsaq, İran da eyni tələbi edə bilər. Amma mənə elə gəlir ki, hər iki dövlətə qarşı viza aradan qaldırılmalıdır. İran siyasətini ən çox tənqid edən siyasi ekspertlərdən biriyəm. İranın siyasəti ilə bağlı xeyli suallar var. İran-Ermənistan əməkdaşlığı bizi narahat edir. Rəsmi Tehranın regional siyasəti ilə bağlı da suallarımız az deyil. Amma bir məsələ var ki, İranla münasibətlərdə normallaşma gedir. Ortaq layihələr var. Üstəlik, orada 30 milyon azərbaycanlı yaşayır. Əgər istəyiriksə, İran Azərbaycan mövqeyinə yaxınlaşsın, Dağlıq Qarabağ məsələsində bizi dəstəkləsin, üstəlik, Arazın o tayında yaşayan azərbaycanlılarla sıx münasibətlər quraq, o zaman viza ortadan qaldırılmalıdır. Viza rejiminin aradan qaldırılması Azərbaycanın turizm potensialına da müsbət təsir edəcək. Dövlət başçısı deyir ki, neft erası başa çatır, başqa gəlir vasitələri barədə düşünməli, daha çox turizmə diqqət ayırmalıyıq. Türkiyə və İrandan ölkəmizə gələnlərin sayı artacaqsa, bu, əlavə gəlir deməkdir. Rəsmilərimiz onu da deyirlər ki, hər iki ölkədə



Qüdrət Həsənquliyev

ermənilər yaşayırlar, əgər Azərbaycana rahat gəlsələr, təhlükəsizlik məsələsi ortaya çıxa bilər. Ona qalsa, Rusiya və Gürcüstanda da kifayət qədər erməni var. Yəni qısa müddətdə bu problemi həll etmək lazımdır. Paralel olaraq, hətta bir təklif də verə bilərəm. Yaxın aylarda İsrailin baş naziri Benyamin Netanyahu Azərbaycana gələcək. Hamı bilir ki, Azərbaycanın İsraillə sıx əlaqələri var. Oradan silah alırıq, onlar da bizim neftimizi alırlar. Amma indiyə qədər İsraildə səfirliyimiz belə yoxdur. Düşünürəm ki, bu addımları kompleks atmaq olar. İranın bizdən əsas istəyi viza rejiminin aradan qaldırılmasıdır. İsraildə səfirliyimizi açma bilməməyimizlə bağlı deyilirdi ki, İran buna etiraz edir. Türkiyə və İranla viza rejimi aradan qaldırılsa, rəsmi Tehran İsraildə səfirliyimizin açılmasına etiraz etməyəcək".

**Politoloq onu da qeyd etdi ki, düşmən ölkə olan Ermənistan İranla viza rejimini aradan qaldırıb:** "Biz nə istəyirik? İran azərbaycanlılarının Ermənistana rahat getməsini, yoxsa Azərbaycana rahat gəlməsini? Bir neçə dəfə İrəvanda beynəlxalq konfranslarda olmuşam. Özüm də təəccüb qalmışam ki, İrəvanda nə qədər İran azərbaycanlıları var. Bunlar bizi narahat etməyə bilməz. Hətta söhbət əsnasında onlara sərt şəkildə deyirdim ki, siz burada nə gəzirsiniz? Bütün bunlara görə hesab edirəm ki, Türkiyə və İranla eyni gündə vizaların aradan qaldırılması Azərbaycan üçün çox vacibdir".

**E.Şahinoğlu Türkiyə mətbuatında Azərbaycan əleyhinə gedən yazılara da toxundu:** "Türkiyə mətbuatı rəngarəngdir. Biri belə, digəri elə yazır. Azərbaycan mətbuatı necədirsə, ora da elədir. Bir neçə media orqanına görə bütövlükdə Türkiyə mətbuatını qaralaya bilmərik. Etiraf edək ki, haqlı sual qoyurlar. Biz necə qardaş ölkəyik ki, Türkiyə viza rejimini aradan qaldırır, amma Azərbaycan yox? Bu məsələ Türkiyədə daim gündəmdədir. Təsəvvür edin ki, Azərbaycan prezidenti türkiyəli həmkarı ilə görüşəndə türk jurnalistlərinin verdikləri iki sualdan biri viza ilə bağlıdır. Bu, o deməkdir ki, bu məsələ Türkiyədə ciddi müzakirə olunur. Türkiyə diplomatları ilə görüşlərimdə də bu məsələ daim gündəmə gətirilir. Düşmənlərimiz var, onlar bizə baxıb gülməməlidirlər ki, bunlar necə qardaş ölkədirlər, bir viza məsələsini də həll edə bilmirlər. Azərbaycanın son illərdə qardaş ölkədə böyük yatırımları var. Bu yatırımlar ölkə başçısının dediyi kimi, 20 milyard dollara çatacaq. Biz istəyirik ki, Türkiyənin Azərbaycanda yatırımları artsın. Üç aydan bir keçirilən birgə hərbi təlimlərin və digər məsələlərin fonunda bu viza məsələsi qara ləkə kimi üzərimizdə qalıb. Bu ləkədən mütləq tezliklə azad olmalıyıq".

❑ Cavanşir ABBASLI




# OPEC ölkələri İraqa güzəştə getməyə hazırdır

**Bəzi əsas OPEC üzvü olan ölkələr, o cümlədən Səudiyyə Ərəbistanı neft hasilatının məhdudlaşdırılması ilə bağlı anlaşmada İraqa xüsusi imtiyazların təqdim edilməsi məsələsini dəstəkləyə bilər.**

"Report"un "RİA Novosti" agentliyinə istinadən verdiyi xəbərə görə, bu barədə açıqlamanı OPEC üzvü olan ölkələrdən birinin nümayəndəsi verib.

Qeyd edək ki, İraqın neft naziri Cabbar əl-Laibi OPEC-i ölkəsinin neft hasilatının məhdudlaşdırılması prosesində iştirak etməməsi üçün icazə verməyə çağırıb.

Belə ki, onun ölkəsi hazırda antiterror əməliyyatları aparır. Bu səbəbdən İraqın neft satışından maksimal gəlir əldə etməsi vacibdir. Ona görə də bəzi ölkələr İraqın neft hasilatını artırmasından ehtiyatlanmayaraq ona xüsusi şərtlərlə çalışmaq imkanı verməyə razı olacağını bildiriblər.

Xatırladaq ki, hasilatın məhdudlaşdırılması ilə bağlı son qərar OPEC-in noyabrın 30-da Vyanada (Avstriya) keçiriləcək sammitində veriləcək.

YENİ MÜSAVAT
N 242 (6563) 1 noyabr 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ münaqişəsinin "donu" qışda da açıla bilər

## Siyasi və hərbi ekspertlər xəbərdarlıq edir; **Rasim Musabəyov:** "Konfliktin çox sürətlə amansız və genişmiqyaslı xarakter alacağı realdır..."

**Qarabağ danışıqlarında yenidən üzücü bir mərhələ başlayıb. Bunun da əsas səbəbi vasitəçi dövlətlərin - ATƏT-in Minsk Qrupu həmsədrlərinin konfliktin həllinə görə əsas məsuliyyəti növbəti dəfə Azərbaycan və Ermənistanın üzərinə atması, başqa sözlə, işğala məruz qalan tərəflə işğalçını eyniləşdirməkdə davam etməsidir. Üstəlik, bu fonda problemin həllini sırf dinc vasitələrdə görməsidir.**




Beləcə, apreldəki 4 günlük müharibədən sonra ixtilafın nəhayət, sülh yolu ilə nizamlanması üçün yaranan kövrək imkanlar, unikal şanslar buraxıldı. Hər şey təzədən öz köhnə axarına qayıtdı.

Məsələ də ondadır ki, bu cür yanaşma - təcavüzkara təzyiq eləmədən konfliktin həllində irəliləyiş gözləmək, Azərbaycanı isə hərbi variantdan çəkindirmək - çoxdan özünü sübut eləmiş dalan yoludur. Ərazisinin 1/5-i işğal altında olan Azərbaycan xalqı üçün bu yanaşma təbii ki, əsla məqbul sayıla bilməz.

ATƏT-in Minsk Qrupu həmsədrlərinin bölgəyə son səfəri də bu xüsusda əfsuslar olsun ki, yenilik və gözlənilməz olmadı. Siyasi şərhçilər Qarabağla bağlı həm bu, həm də bəzi digər nüanslara diqqət çəkməkdədirlər.

*****

**"ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona budəfəki səfərindən onsuz da böyük gözlənti yox idi. Hər halda, bu, onların işidir. Ancaq vasitəçilərin səyləri hal-hazırda konfliktin nizamlanması üzrə konkret anlaşma əldə olunmasına yox, Azərbaycan və Ermənistan arasında məzmunlu və ya "substansiv" danışıqların başlamasına nail olmaqdır".**

**Bu sözləri rusdilli day.az saytına açıqlamasında politoloq, deputat Rasim Musabəyov deyib. Onun sözlərinə görə, Azərbaycan prezidenti İlham Əliyevin qapalı danışıqlarda Dağlıq Qarabağın "müstəqilliyini" tanımaqla bağlı Bakıya təzyiq edilməsi haqda sözləri erməni tərəfində müəyyən canlanma yaratsa da, ermənilərin gözləntisi əbəsdir:** "Prezident birmənalı şəkildə bəyan edib ki, heç bir halda biz Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına razılıq verməyəcəyik. Əgər ermənilər status məsələsinin müzakirəsi üçün belə əldən gedirlərsə, o zaman bəyan edilib ki, bu məsələ müstəsna olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkün ola bilər. Ancaq aydındır ki, ərazilərin azad edilməsi ilə eyni həlqədə sülh və təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi, kommunikasiyaların açılması, münaqişə tərəfləri arasında əlaqələrin bərpası və böyük sayda humanitar xarakterli problemlərin həlli ən aktual məsələlərdir. Status məsələsi ilə bağlı dialoq çox sürə bilər, lakin o, sülh şəraitində daha produktiv ola bilər, nəinki tərəflərin bir-birinə silahların nişangahından bir-birinə baxdığı zamanda".

**Politoloq həmsədrlərin səfəri zamanı insidentlərin araşdırılması mexanizmi məsələsinin qaldırılmamasının erməni tərəfini məyus etməsinə də toxunub:** "Bu da təsadüfi deyil. Bakı vasitəçilərə aydın şəkildə anladıb ki, ermənilərin 1993-94-cü illərdəki hərbi əməliyyatlardan sonra formalaşmış təmas xəttini möhkəmlətmək və bununla da müəyyən şəkildə Azərbaycan ərazilərinin işğalını legitimləşdirmək istəyi qəti şəkildə qəbuledilməzdir. Əlavə təhlükəsizlik və beynəlxalq monitorinq tədbirləri status-kvonun dəyişməsi ilə daha əhatəli anlaşmanın tərkib hissəsi ola bilər. Razılıq yalnız ATƏT sədrinin xüsusi nümayəndəsinin missiyasının qismən genişlənməsinə verilib".

**Politoloqun sözlərinə görə, erməni silahlı qüvvələrinin rəhbərliyindəki dəyişikliklər effektli olmayacaq.** "Ermənistan Müdafiə Nazirliyində yeni təyinatlar yalnız hakimiyyətin yeni konfiqurasiyasına hazırlıq kontekstində əhəmiyyət daşıyır - nə vaxt ki, Serj Sərkisyanın prezidentlik səlahiyyətləri başa çatacaq - və onun öz etibarlı adamları vasitəsilə silahlı qüvvələrə nəzarəti gələcəkdə də öz əlində saxlamaq niyyəti güdür. Bu dəyişikliklər münaqişə zonasındakı situasiyaya hər hansı təsir göstərməyəcək" - Musabəyov söyləyib.

**Onun qənaətincə, Qarabağa dair məzmunlu danışıqlar başlamayınca və erməni silahlı qüvvələrinin işğal altındakı Azərbaycan ərazilərindən çıxarılmağa başlaması ilə bağlı konkret anlaşmalara çıxış təmin olunmayınca, təmas xəttində kəskinləşmə qaçılmazdır.** "Apreldəki döyüş əməliyyatları hamıya göstərdi ki, Dağlıq Qarabağ konflikti "dondurulmayıb" və çox sürətlə amansız və geniş miqyaslı xarakter ala bilər. Belə neqativ ssenarilərin qarşısını təmas xəttindəki heç bir monitorinq və ya beynəlxalq birliyin xoşməramlı çağırışları, yaxud heç bir "İsgəndər" raketinin nümayişi və Ermənistanın silahla yüklənməsi ala bilməz. Azərbaycan ərazilərinin boşaldılması təxirəsalınmaz zərurətə çevrilib", - deyə ekspert sonda əlavə edib.

*****

Bu, gerçəkdən də belədir. Ərazilərin işğaldan azad edilməsinin illər sonraya saxlanması isə əlbəttə ki, geniş miqyaslı hərbi toqquşmaları, daha doğrusu, Azərbaycanın öz ərazisində separatçı və işğalçı qüvvələrə qarşı antiterror əməliyyatı aparmasını qaçılmaz edir. Özü də ümid etmək ki, bu əməliyyatlar soyuq aylarda aparılmayacaq - tam yanlışdır. Dağlıq Qarabağ münaqişəsinin "donu" həqiqətən qışda da açıla bilər.

**Hərbi ekspert Üzeyir Cəfərov də payız və qışın döyüşlər üçün əlverişli olmayan fəsillər kimi sayılması fikirləri ilə razılaşmır.** "Mən vaxtilə Qarabağın Füzuli istiqamətində aparılmış döyüş briqadasının komandir müavini kimi deyə bilərəm ki, bu vaxtlar o qədər də əlverişsiz hesab edilmir. Belə götürəndə normal vaxtdır - nə isti, nə də soyuqdur. İstənilən an aktiv döyüş əməliyyatlarının başlaması mümkündür. Amma kənardan baxanda elə görünür ki, buna o qədər də zərurət yoxdur. Lakin bununla razılaşmıram. Çünki cəbhə xəttində gərginlik yüksək səviyyədədir", - deyə ekspert müsavat.com-a bildirib.

**Aktiv döyüş əməliyyatlarının məhz oktyabr-noyabr aylarında olduğunu yada salan hərbi ekspert 1-ci Qarabağ savaşının xronologiyasına baxmağı da məsləhət görür.** "Bütün bunlara görə silahlı qüvvələrimiz son dərəcə ehtiyatlı olmalıdır. Proseslərin gedişatı onu göstərir ki, Azərbaycan yalnız güc müstəvisində Ermənistanı yerində oturda bilər. Bunlar olmadan ermənilər heç bir halda torpaqlarımızı bizə qaytarmağa hazırlaşmır" - Üzeyir Cəfərli vurğulayıb.



# Erməni politoloqdan Sərkisyana soyqırım ittihamı

**"Ermənistanda bu gün daha ağır soyqırım həyata keçirilir, nəinki 1915-ci il hadisələrində". Bu fikirləri erməni mediasına Moskvada yaşayan müstəqil hüquq müdafiəçisi, erməni politoloq Arbak Xaçatryan bildirib (axar.az).**

Onun sözlərinə görə, bu gün Ermənistanda insanlar yerli köstəbəklərə qarşı mübarizə apara bilmirlər: "Ona görə də insanlar xaricə üz tuturlar ki, bir neçə qəpik qazanıb ailələrini dolandırsınlar. Bu, 1915-ci il hadisələri ilə müqayisədə daha ağır soyqırımdır. Yəni o zaman insanlar ölkədən qorxub qaçırdılar ki, dillərini və mədəniyyətlərini qoruyub saxlasınlar. Həm də başqa millətdən qaçırdılar. İndi isə ermənilər yerli talançılardan qaçır. Belə bir vəziyyət əhaliyə həddindən artıq pis təsir edir və onlar anlayırlar ki, artıq öz dövlətləri onların düşməninə çevrilib".

YENİ MÜSAVAT
N 242 (6563) 1 noyabr 2016

# Noyabr ayının hava proqnozu açıqlanıb

**Noyabr ayında havanın orta aylıq temperaturunun iqlim normasına yaxın olacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, aylıq yağıntının miqdarının əsasən iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı ehtimalı var.**



**Bakıda və Abşeron yarımadasında** orta aylıq temperaturun 9-12 dərəcə isti (gecələr 5-10, gündüzlər 12-17, bəzi günlərdə 6-9 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır.

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın (norma 28-38 mm), bəzi yerlərdə isə bir qədər çox olacağı gözlənilir.

**Naxçıvan Muxtar Respublikasında** orta aylıq temperaturun 6-9 dərəcə isti (gecələr 0-5 dərəcə isti, bəzi günlərdə 4-9 dərəcə şaxta, gündüzlər 13-18, bəzi günlərdə 5-10 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır.

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın (norma 18-28 mm), bəzi yerlərdə isə bir qədər çox olacağı gözlənilir.

**Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən və Gədəbəy rayonlarında orta aylıq tem**peraturun 4-7 dərəcə isti (gecələr 0-5 dərəcə isti, bəzi günlərdə 4-9 dərəcə şaxta, gündüzlər 6-11 dərəcə isti, bəzi günlərdə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır.

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın (norma 27-34 mm) olacağı gözlənilir.

**Qazax, Gəncə, Goranboy, Tər-Tər, Ağdam, Füzuli, Cəbrayıl** rayonlarında orta aylıq temperaturun 6-9 dərəcə isti (gecələr 4-8 dərəcə isti, bəzi günlərdə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüzlər 10-15, bəzi günlərdə 3-8 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır.

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın (norma 15-24 mm), bəzi yerlərdə isə bir qədər çox olacağı gözlənilir.

**Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Xızı, Siyəzən, Şabran, Quba, Qusar, Xaçmaz** rayonlarında orta aylıq temperaturun 6-8 dərəcə isti (gecələr 1-6 dərəcə isti, bəzi günlərdə 2-7 dərəcə şaxta, yüksək dağlıq ərazilərdə 12-17 dərəcə şaxta, gündüzlər 7-12 dərəcə isti, bəzi günlərdə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır.

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın (norma 29-73 mm), bəzi yerlərdə isə bir qədər çox olacağı gözlənilir.

**Mərkəzi-Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala** rayonlarında orta aylıq temperaturun 9-11 dərəcə isti (gecələr 5-10, bəzi günlərdə 0-5, gündüzlər 12-17, bəzi günlərdə 5-9 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır.

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın (norma 25-45 mm), bəzi yerlərdə isə bir qədər çox olacağı gözlənilir.

**Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara** rayonlarında orta aylıq temperaturun 7-12 dərəcə isti (gecələr 5-9, bəzi günlərdə 1-3 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, gündüzlər 11-16, bəzi günlərdə 5-9 dərəcə isti) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır.

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın (norma 55-170 mm), bəzi yerlərdə isə bir qədər çox olacağı gözlənilir.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Bakıda kişi arvadını və qızını bıçaqladı

**Bakıda kişi ailə münaqişəsi zəminində arvadını və qızını bıçaqlayıb. "Report"un xəbərinə görə, hadisə Pirallahı qəsəbəsi, Süleyman Rəhimov küçəsi 81 ünvanında qeydə alınıb.**

Belə ki, Rəhimov soyadlı (adı hələlik müəyyənləşdirilməyib) şəxs həyat yoldaşı 51 yaşlı Qönçə Umudova ilə mübahisə edib. O, mətbəx bıçağı ilə Q.Umudovaya iki, qızı 22 yaşlı Aytac Rəhimliyə bir bıçaq zərbəsi vurub.

Daha sonra həmin şəxs qaçaraq evdən uzaqlaşıb. Yaralılar xəstəxanaya yerləşdirilib.

Polis əməkdaşları cinayət əməlini törədən şəxsin axtarışlarına başlayıb.



## Qanunsuz mərc və qumar oyunları təşkil edən şəxslər saxlanıldı

**Ölkədəki idman mərc oyunlarının operatoru ilə müqavilə bağlamadan qanunsuz fəaliyyət göstərən idman mərc oyunlarının həm yerli, həm də xarici virtual satıcılarının internet portalları və saytlarının ölkə ərazisində fəaliyyətinin qarşısının alınması, həmin oyunları müvafiq icazə olmadan təşkil edən və ya keçirən şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi istiqamətində daxili işlər orqanları tərəfindən uğurlu əməliyyat tədbiri həyata keçirilib.**

Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən məlumat verilib.

Məlumata görə, DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə Binəqədi rayonu ərazisində yerləşən çay evlərindən birində qanunsuz idman mərc və qumar oyunlarının keçirilməsi barədə əməliyyat məlumatı daxil olub.

Əməliyyat-axtarış tədbirləri nəticəsində qeyd edilən çay evinə baxış keçirilib və fakt öz təsdiqini tapıb. Qanunsuz mərc və qumar oyunları təşkil edən Təyyar Hüseynov, Ramin Musayev və Suliddin Nəsirov saxlanılıb. Həmçinin həmin obyektdə qanunsuz mərc və qumar oynayan 7 vətəndaş müəyyən edilərək barələrində qanuni tədbir görülüb.

Çay evinə baxış keçirilən zaman mərc və qumar oyunlarında istifadə edilən maddi sübutlar, yazılı şəkildə olan uduşlu mərc kuponları, eləcə də iş üçün maraq kəsb edən digər əşyalar aşkar edilərək götürülüb.

Qeyd edilən fakta bağlı Baş İdarənin İstintaq Şöbəsində cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.


**Elan**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
**Əziz oxucular, xaricdə və Azərbaycanda nəşr olunan qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün zəng etməyiniz və ya email (kioskum.az@gmail.com ailto:kioskum.az@gmail.com) yazmağınız kifayətdir.**
**Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!**
**Telefon: (012) 434-93-01**

YENİ MÜSAVAT
N 242 (6563) 1 noyabr 2016

# Yeni doğulan uşağa 90, buzova isə 100 manat verilir...

## Dünya təcrübəsi ilə müqayisədə Azərbaycan hökumətinin körpələrə münasibəti utancvericidir; **Natiq Cəfərli:** "Bir müddət sonra demoqrafik vəziyyət kəskin pisləşə bilər"



**Azərbaycanda yeni doğulan körpə üçün birdəfəlik müavinət 90 manat, yeni doğulan buzov üçün isə ayrılan vəsait 100 manatdır. Yəni dünyaya gələn uşağa görə 1-ci, 2-ci, 3-cü və s. övlad olmasından, təbii doğuşla, yaxud süni mayalanma ilə doğulmasından asılı olmayaraq 90 manat ayrılır. Süni mayalanma ilə əmələ gələn buzova görə isə fermerə 100 manat subsidiya verilir.**

Təbii ki, ölkədə yeni doğulan heyvana insandan çox pul verilməsi gülüş doğurur. Ümumiyyətlə, Azərbaycanda uşaqlar üçün nəzərdə tutulmuş müavinətlər arzu olunan, demoqrafik durumu balanslaşdıra biləcək səviyyədə deyil.

Bir çox dünya ölkələrində uşaqlara verilən müavinətləri müqayisə edəndə, bizdə durumun acınacaqlı olduğunu görərik. Azərbaycanda uşağın anadan olmasına görə birdəfəlik müavinət 90 manat müəyyənləşdirilib.

İşləyən qadın analıq məzuniyyəti dövründə hər ay kiçik bir məbləğ alır. Yəni bu müddətdə ana işə çıxmırsa, uşağı 1 yaş yarıma çatanadək 20 manat müavinət, 1,5-3 yaşadək isə 15 manat müavinət alır. İşləməyən analar isə bu yardımdan məhrumdur. Onlar yalnız birdəfəlik 90 manat məbləğində yardım alırlar.

90 manat isə bir körpənin maksimum 1 aylıq yeməyinə, pampersinə çatır. Onu da diqqətə çatdıraq ki, hazırda bir körpənin dünyaya gəlişi zamanı təkcə xəstəxana xərcləri 500-1000 manat civarında dəyişir. Düzdür, dövlət xəstəxanalarında doğuş pulsuzdur, amma...

Xatırladaq ki, 2006-cı ilin yanvarınadək 18 yaşa qədər olan uşaqlara da 1 manat 80 qəpik məbləğində müavinət verilirdi. Ancaq sonradan bu müavinət də ləğv edildi və birdəfəlik müavinət müəyyən olundu. Bu da ailədə uşaqların sayı 5 nəfərdən çox olarsa, o zaman 18 yaşadək hər uşağa 30 manat müavinət verilir. Xarici ölkələrdə isə durum tamamilə fərqlidir. Məsələn, Ukraynada birinci uşağa görə məbləğ 1800 dollar, ikinci uşağa görə 3750, üçüncü və ondan sonrakı uşaqlara görə 7140 dollar ödənilməsi nəzərdə tutulur. Avropada isə uşaqlar üçün nəzərdə tutulan müavinətlər və imkanlar tamamilə fərqlidir.

Almaniyada hər bir uşağa 3 yaşınadək ayda 270 avro pul verilir. Bir yaşından isə uşağın adına ipoteka krediti sənədləşdirmək mümkündür. Fransada hətta uşaq dünyaya gəlməmiş, ana hamilə ikən uşağa görə müavinət alır. Britaniyada isə birdəfəlik yardım 500 funt-sterlinqdir. Bəzi ərəb ölkələrində isə bu məbləğ 20 min dollardan başlayır. Bir çox ölkələrdə çoxuşaqlı ailələrə xüsusi status, əlavə güzəşt və imtiyazlar verilir. Fransada hələ 1921-ci ildən "Böyük ailə" adlı dövlət proqramı fəaliyyət göstərir. Həmin proqrama əsasən dövlət siyasəti çərçivəsində çoxuşaqlı ailələrə subsidiyaların və imtiyazların verilməsi nəzərdə tutulub. Çoxuşaqlı ailələrə həmçinin vergi imtiyazları da təqdim olunur. Hər doğulan uşaq vergilərin azalması deməkdir. Beləliklə, əgər ailədə 4 uşaq varsa, həmin ailə praktik olaraq vergi ödəmir. İsveçdə çoxuşaqlı ailələrə proqressiv müavinətlər verilir və bu müavinətlər hər yeni doğulmuş uşağa görə artır. Əlavə olaraq yaşayış üçün ev haqqı, məktəbəqədər müəssisələrin xərci dövlət tərəfindən ödənilir, hətta ərzaq üçün xüsusi talonlar verilir. Burada natamam, xüsusilə də qadın tərəfindən idarə olunan ailələrə bir sıra əlavə güzəştlər də təqdim olunur. Finlandiyada isə çoxuşaqlı ailələrə, tək valideynli ailələrə hər hansı bir imtiyaz verilmir. Lakin müxtəlif səpkilərdə sosial müavinətlər verilir. Bunlardan biri "yeni doğulmuşlar üçün paket"dir. Bu paket bütün qadınlara şamil edilir və uşağın 1 yaşına qədər hər bir ehtiyacları ödənilir. Paketin məbləği bir neçə yüz avro ilə ölçülür. Uşaqlar böyüdükcə, onların digər ehtiyacları da nəzərə alınaraq müəyyən güzəştlər verilir.

Polşada isə hazırda yeni meyar qəbul olunub: Əgər çoxuşaqlı ailələrdə adambaşına düşən gəlir 125 dollardan azdırsa, onda həmin ailəyə imtiyazlar verilir. Əgər ailədə əlil uşaq varsa, valideynlərdən biri işləmirsə, həmin uşağa qulluq göstərməklə məşğul olurlarsa, onda həmin məbləğ 2 dəfə çox verilir. Çexiyada hər doğulan uşağa görə qadının təqaüd yaşı azaldılır. Rusiyada 1992-ci ildə "Çoxuşaqlı ailələrə sosial yardımın edilməsi" haqqında sərəncamda çoxuşaqlı ailələrə yardım 32 maddədə göstərilir. Onlardan biri çoxuşaqlı ailələrə 30 il müddətində, ilkin ödənişsiz ev krediti verilməsidir.

Rusiyada 1 uşağa görə 1500 rubl, 2 uşağa görə 3000 rubl, 3 uşağa görə 3500, 4 uşağa görə 4000 rubl verilir.

Maraqlıdır, Azərbaycanda niyə uşaq müavinətləri artırılmır?

**İqtisadçı ekspert Natiq Cəfərli müavinətlərlə bağlı məsələlərin çox bərbad vəziyyətdə olduğunu dedi:** "Yeni doğulmuş uşaqlara, gənc ailələrə müavinətlərin verilməsi acınacaqlı səviyyədədir. Tək onu demək kifayətdir ki, Rusiyada ikinci uşağa təxminən 250-300 min rubl arası vəsait ödənilir. Üçüncü uşaqdan sonra bir çox kommunal xərclər dövlət tərəfindən ödənilir. Çoxuşaqlı ailələrə çox böyük dəstək proqramı var. Təbii ki, bunun səbəbi Rusiyada doğuşun çox aşağı səviyyədə olması və dövlətin stimullaşdırma proqramlarını həyata keçirmək istəyidir. Azərbaycanda iqtisadi aktivlik xeyli dərəcədə zəifləyib, insanların gəlirləri azalıb, sosial gərginlik artıb, buna görə də sosial məsələlərdə daha aktiv olmaq lazımdır. Hökumət bu gün bu məsələləri görüb həll etmək istəməsə, bir müddət sonra Azərbaycanda da demoqrafik vəziyyət qonşu ölkələrdəki olduğu kimi ola bilər. Yəni əhalinin artımının xeyli dərəcədə sürətinin zəiflədiyini müşahidə edərik. Çünki iqtisadi çətinliklər artdıqca gənc ailələr dünyaya uşaq gətirmək haqqında qərar verməkdə çətinlik çəkir. Bir müddət sonra Azərbaycanda da Avropa ölkələrində və digər ölkələrdə olduğu kimi təkuşaqlı ailə modelinə keçid mümkün ola bilər. Sosial məsələlərin həllində gənc ailələrə daha ciddi yardımların ayrılmasına çalışılmalıdır. Əgər bu baş verməsə bir neçə ildən sonra Azərbaycan daha ciddi bir problemlə - demoqrafiq vəziyyətin kəskinləşməsi, artımın azalması ilə rastlaşa bilər. Ancaq görünür, Azərbaycan hökumətinin gündəliyində hələ ki bu məsələ yoxdur. Hökumət kənd təsərrüfatının stimullaşdırılmasını daha ciddi məsələ sayır. Ona görə də cins buzovlar dünyaya gəldikdən sonra onlara qulluq və stimullaşdırmaq üçün gənc heyvan sahibinə nisbətən daha artıq vəsait verilir".

❑ **Günel MANAFLI**



# "Zəlzələ silahı Amerikanın əlindədir"

## **Qurban Yetirmişli:** "İtaliyanın seysmoloji cəhətdən Azərbaycanla heç bir əlaqəsi yoxdur"

**Oktyabrın 30-da səhər saatlarında Mərkəzi İtaliyada 6,6 bal gücündə zəlzələ baş verib. Bunun ardınca sutka ərzində 200-dən çox yeraltı təkan qeydə alınıb. Zəlzələnin episentri 5 min insanın yaşadığı Norça şəhəri yaxınlığında yerləşir. Nəticədə şəhərin tarixi hissəsinin xeyli zərər gördüyü, təxminən 20 nəfərin xəsarət aldığı bildirilir. Həlak olanlar və ya itkin düşənlər barədə məlumat verilmir. Şəhər əhalisinin böyük əksəriyyəti artıq təhlükəli rayonlardan təxliyə olunub.**

Yerli hökumətin hesablamalarına görə, hazırda 100 min nəfərə yaxın insanın yardıma ehtiyacı var. Yeraltı təkanlar ölkənin bütün ərazisində, həmçinin Romada və digər iri şəhərlərdə hiss olunub. Dağıdıcı zəlzələdən sonra evlərini itirmiş təxminən 8 min insan artıq sığınacaqlarda və mehmanxanalarda yerləşdirilib. Sığınacağa ehtiyac duyan insanların bir çoxu isə hələ ki avtomobillərdə və şəhərin küçələrində quraşdırılmış çadırlarda yaşayır. Qeyd edək ki, Avropa ölkələrində zəlzələlərə az sayda rast gəlinir. İtaliyada dağıdıcı zəlzələnin olması "Azərbaycanda da bu cür zəlzələnin başvermə ehtimalı ola bilərmi" sualını ortaya qoyur. Ümumiyyətlə, Azərbaycan hansı faylarda yerləşir? İtaliya faylının Azərbaycan ərazisinə bir aidiyyəti varmı?

**Respublika Seysmoloji Mərkəzinin direktoru Qurban Yetirmişli İtaliyada olan zəlzələnin Azərbaycana heç bir aidiyyəti olmadığını dedi:** "Zəif təkanlarla enerji boşalması gedir. İtaliyanın seysmoloji və tektonik quruluş cəhətdən Azərbaycanla heç bir əlaqəsi yoxdur".

Ekoloq Telman Zeynalov İtaliyadakı zəlzələnin doğrudan da təbii fəlakət olmasının şübhə altında olduğunu dedi: "Biz Şərq ölkələri ilə əlaqəliyik, İtaliya isə qərbdə yerləşir. Bunun da bizə heç bir aidiyyəti yoxdur. Son dövrlərdə İtaliyanın apardığı siyasətə baxın. Bütün Avropa ölkələri Rusiyaya qarşı embarqo tətbiq edir, İtaliya isə sanksiyaları qəbul etmir. İtaliyada zəlzələ törətməyə nə var ki?! Zəlzələ silahı Amerikanın əlindədir. Orada zəlzələyə səbəb məhz bu siyasi oyunlar da ola bilər. Həm də təbii fəlakət də ola bilər. Orada zəlzələ 30-35 il əvvəl baş verib. O zaman 5,7 bal gücündə olub. İndi isə gəlib çıxıb 6,7-yə. Nə qədər dağıntı var. İtaliyada dağılan binalar köhnə binalardır. Onların ömrü çoxdan bitib. Orada 5-6 bal gücündə davamlı zəlzələ olsa, binaların hamısı dağılacaq. Çünki qədimi tikilən binalardır. Bundan qabaq olan zəlzələlər həmin binaları yerindən yavaş-yavaş tərpədib. Bu binaları bərkitməyiblər. Ona görə də indi zəlzələ bu binaları vurub dağıdıb. Ən azı yüz minlərlə insan evsiz eşiksiz qalıb".

**T.Zeynalov Azərbaycanın zəlzələ ocaqlarının fərqli olduğunu bildirdi:** "Bizimki Böyük və Kiçik Qafqaz dağlarıdır. Bunlar cavan dağlardır. İndi də bu dağlar fəaliyyətdədir. Hər il haradasa yarım, bir santimetr yuxarı qalxırlar, yeni hərəkətdədirlər. Bu isə onu göstərir ki, bura zəlzələ ocaqlarıdır. Azərbaycanda il ərzində 2-3 minə yaxın xırda yeraltı təkanlar baş verir. Hansısa elmi ocaq deyib ki, guya Azərbaycanda 9 bal gücündə zəlzələ gözlənilir. Nağıl danışırlar, bu, tamamilə yalandır. Panika yaradacaq təbii fəlakət ehtimalı yoxdur. Ancaq bir məsələ var ki, silahlar var. İstədikləri yerdə zəlzələ yaratmaq üçün bu silahlardan istifadə edirlər. Məsələn, Yaponiyada zəlzələləri yaradan Amerika idi. Bu təbii fəlakət deyil, süni fəlakətdir. Süni surətdə silahlardan istifadə edib hamısını öz əsarəti altına almaq, apardığı siyasətə tabe etmək istəyirlər".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 242 (6563) 1 noyabr 2016

# Toylarını metroda keçirdilər




Türkiyədə İstanbul Böyükşəhər Bələdiyyəsi tərəfindən metro stansiyalarında nikah mərasimlərinin təşkil edilməsinə icazə verildikdən sonra ilk nikah baş tutub. Alper Odabaş və Yeşim Demiray cütlüyü metronun Haliç stansiyasında evləniblər. Cütlük stansiyaya gəlin maşını kimi bəzədilən qatarla gəlib. Bəy açıqlamasında bildirib ki, fərqli şeyləri sevdiyi üçün belə addımı atıb. Bəylə gəlin qatarların içində gəzərkən sərnişinlərin təbrikini qəbul ediblər, sonuncular onların başına gül çiçəyi səpiblər.



## 20 sevgilisinə telefon aldırdı, onları satıb ev aldı

Çinin Şençjen şəhər sakini olan bir gənc qız ona hədiyyə olunan 20 ədəd iPhone7 markalı telefonu sataraq onun puluna ev alıb. Bu barədə qızın rəfiqəsi internetdə məlumat verib. Adı açıqlanmayan çinli qızın 20 sevgilisi olub və o, onların hər birindən yeni çıxan iPhone7 telefonu istəyib. Qızın sözlərinə görə, sevgililərinin hamısı onun bu arzusunu yerinə yetirib. O da əlində olan yeni telefonları sataraq 17 min dollara yaxın vəsait əldə edib. Həmin pula isə şəhər kənarında bir ev alaraq dostlarının yanında bununla qürrələnib. Qızın rəfiqəsi yazıb ki, sevgililəri hesabına ev alan gənc qız kasıb ailədə böyüyüb və bu evi qoca ata-anası üçün alıb.



## Dar şalvar ucbatından az qala ayağını kəsəcəkdilər

52 yaşındaki Ceyn Rilans dar şalvar ucbatından az qala ayağını, hətta həyatını itirirdi. "The Sun" internet saytında yayımlanan xəbərə görə, eyni şalvarla bir saat daha qalsaydı, ayağı kəsiləcəkdi. Bütün gün eyni dar şalvarı geyinən Ceyn dostunun təşkil etdiyi partidə özündən gedib. Səhəri gün xəstəxanaya gedən qadının ayaqları şar kimi şişmişdi. Həkimlər əzələlərin və sinirlərin həddən artıq təzyiqdən zərər görməsi ucbatından xəstəyə kompartman sindromu diaqnozu qoyub. 4 saatlıq əməliyyat keçirən qadına dəri köçürülüb. Vaxtında müdaxilə edilməsəydi, lazımi qədər qan dövranı olmaması oksigen aclığına səbəb olacaqdı. 1 saat gecikmə olsaydı, Ceynin ayağı kəsilməli olacaqdı. Hətta ölümlə belə nəticələnə bilərdi. Ceyn çətin keçən əməliyyatın izlərini ömrü boyunca ayağında daşıyacaq.

# 5.2 milyon dollara təyyarə aldı, restorana çevirdi

Çinli bir iş adamı tərəfindən satın alınan təyyarə restorana çevrilib. Çinlilər bu təyyarəyə səyahət etmək üçün yox, yemək zövqü yaşamaq üçün minirlər. Çinin Hubei bölgəsindəki bir restoran öz mətbəxini artıq istifadə edilməyən təyyarəyə daşıyıb. Yeməklər stüardessa kimi geyinən qadın ofisiantlar tərəfindən servis edilir. Çinli iş adamı Li Yang bu ilginc təcrübəsini həyata keçirmək üçün artıq istifadə olunmayan "Boeng 737" təyyarəsini tam 5.2 milyon dollara satın alıb. Olduqca qeyri-adi bir yemək yemə təcrübəsi təqdim edən təyyarəyə bilet alaraq minmək mümkündür. Müştərilər yemək sifarişlərini təyyarəyə minərkən verirlər. Restoranın menyusunda fransız və rus mətbəxindən yeməklər yer alır. Qısa bir müddət öncə fəaliyyətə başlayan restoran çinlilərin böyük marağına səbəb olub. Bundan başqa, təyyarə-restorana ölkə xaricindən gələn turistlər də böyük maraq göstərirlər.





## Ərik yeyənlərin saçı tökülmür

Aparılan araşdırmalar nəticəsində əriyin saç tökülməsinin qarşısını aldığı ortaya çıxıb. Tədqiqatçılar əriyin tərkibində bol miqdarda selen mineralı olduğunu vurğulayıblar. Bu mineral saç tökülməsinə qarşı ən güclü vasitə hesab edilir. Ərik həmçinin saç tökülməsinə mane olan sink, selen mineralı, A vitamini və kalium ehtiva edir.

Alimlər bildirirlər ki, əslində şaftalı da selen mineralı ilə zəngindir. Ancaq əriyin daha faydalı hesab edilməsinin səbəbi saç tökülməsinə mane olan bütün mineralları eyni zamanda ehtiva etməsidir.

Uşaqlıqdan etibarən mövsümündə bol miqdarda ərik yeyənlər saç tökülməsi problemi ilə üzləşmirlər. Saçı tökülən insanlar gündə 3-4 ədəd ərik yesələr, bu problemdən xilas ola bilərlər.

Qeyd edək ki, mütəxəssislər qaysının eyni effekti vermədiyini bildirirlər və təzə, sulu ərik yeməyi tövsiyə edirlər.

## Qoroskop




QOÇ - Yaxşı olar ki, saat 13-ə qədər bütün vacib işlərinizi təxirə salasınız. Əks təqdirdə, cəhdləriniz boşa çıxacaq. Sonrakı saatlarda isə perspektivli sövdələşmələrin iştirakçısı olacaqsınız.

BUĞA - İxtiyarınızda olduqca gərgin bir gün durur. Bəri başdan bütün vacib işlərinizi təxirə salın. Münaqişələrə həvəs göstərməyin, neytral olmağa çalışın. Bəxtinizdə pul da var.

ƏKİZLƏR - Göy qübbəsi yalnız ailə-sevgi məsələlərində uğurlara yaxın olacağınızı bildirir. Fəaliyyətdə və ya digər münasibətlərdə isə vəziyyət heç də qənaətbəxş olmayacaq. Səfərə çıxmayın.

XƏRÇƏNG - Mövcud problemlərinizi həll etmək üçün kənardan dəstək almalısınız. Əks təqdirdə, uğursuzluqla üzləşəcəksiniz. Saat 14-17 aralığı bu baxımdan olduqca əlverişlidir.

ŞİR - Hiss olunur ki, səhhətiniz ürəkaçan deyil. Lakin narahatçılığa əsas yoxdur. Çünki bütün hallarda həkim əlinə düşməyəcəksiniz. Nahardan sonra şad xəbər eşidəcəyinizə inanın.

QIZ - Maliyyə problemlərinizin artması ümumi ovqatınızda mənfi çalarlar yaratmaqdadır. Azacıq səbr edin, yaxın vaxtlarda kisəniz ağırlaşacaq. Əsas diqqəti münasibətlərə yönəldin.

TƏRƏZİ - Astroloji göstəricilər yalnız qonaqlıq və səfərlər üçün uğurlu ərəfə olduğunu bildirir. Odur ki, digər işlər barədə baş sındırmağa dəyməz. Sizi gözləyənləri şad edin.

ƏQRƏB - Axşam saatlarına qədər mənfi enerjili Ay bürcünüzdə olduğundan fəaliyyətinizdə bəzi neqativliklər ola bilər. Əzm göstərin ki, nəticə uğurlu olsun. Axşam ürəyinizə yaxın simsarlarınıza baş çəkin.

OXATAN - Təxminən saat 14-ə qədər özünüzü gərgin situasiyalardan qorumağa çalışın. Sonrakı ərəfədə sevindirici xəbər eşidəcəksiniz. Maraqlı təkliflər də gözlənilir.

OĞLAQ - Qarşınızda füsunkar bir təqvim var. Bəxtinizə inanırsınızsa risk etməyə dəyər. Çünki gözlənilməz sürprizlər yolunuzu gözləyir. İstənilən ikitərəfli əməkdaşlıq uğurludur.

SUTÖKƏN - Daxili tərəddüdləriniz ümumi sabitliyinizi pozmaqdadır. Nəyi, necə edəcəyinizi müəyyənləşdirə bilmirsiniz. Odur ki, həyata açıq gözlə baxın. Enerjinizi daha çox sevgidən alın.

BALIQLAR - Ulduzların düzümü maraqlı insanlarla rastlaşma ehtimalınızdan xəbər verir. Amma onların arasında bir neçəsi ovqatınızı aşağı salmağa çalışa bilər. Bu səbəbdən uzaqgörən və dözümlü olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İt gəzintiyə çıxdı, sahibinə marixuana gətirdi



Amerikanın Missisipi ştatında gəzintiyə çıxan it öz sahibinə yarım kiloluq marixuana paketi gətirib. Kişi paketi polisə təhvil verib. İt sahibi bildirib ki, öncə heyvanın ona zibil parçası gətirdiyini düşünüb. Amma bir müddət sonra amerikan torbadan gələn qoxudan onun içindəkinin narkotik olduğunu anlayıb. İtin bu qutunu harda və necə tapdığı məlum deyil. Hüquq-mühafizə orqanları insidenti araşdırmağa başlayıb. Marixuanadan istifadəyə Amerikanın Alyaska, Kolorado və Oreqon ştatlarında qismən icazə var. Daha 21 ştatda isə tibb müəssisələrində marixuanadan istifadəyə rəsmi icazə verilib və ya yaxın gələcəkdə icazə veriləcək. Amma Missisipidə marixuanadan istifadə, onun saxlanılması qanunla qadağandır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750